8 mart 2024 №19 (2084)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Rusiya Azərbaycanla mədəni əməkdaşlığa önəm verir

### "Azərbaycan Mədəniyyət Nazirliyi ilə əməkdaşlığın genişləndirilməsi üzrə razılıq əldə etdik"

İkitərəfli qarşılıqlı fəaliyyət nəzərdə tutduğumuz qaydada inkişaf edir. Artıq iki ildən bir az çoxdur ki, biz müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində əməkdaşlıq edirik, əlaqələrin möhkəmləndirilməsi üzrə qarşıya qoyulmuş bütün vəzifələr uğurla yerinə yetirilir.

Prezident İlham Əliyev bu fikri martın 6-da Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə görüşü zamanı söyləyib.

Bir gün öncə (5 mart) RF Hökuməti sədrinin azərbaycanlı həmkarı ilə məhsuldar görüşü barədə məlumatı olduğunu qeyd edən İlham Əliyev bildirib ki, 2023-cü ili iki ölkə arasında münasibətlər baxımından uğurla başa vurmuşuq.

Prezident çıxışında aşağıdakı məqamları vurğulayıb.

İqtisadi-ticari sahədə nəticələr tamamilə qənaətbəxşdir, 17 faizlik artım var. Zənnimcə, yaxşı göstəricidir. Artıq 4,5 milyard dollar səviyyəsinə yaxınlaşırıq. Amma təbii ki, bu, son hədd deyil.

Sənaye kooperasiyası layihələri əməkdaşlığımızın nisbətən yeni sahəsidir. Rusiyanın Azərbaycandakı şirkətləri yeni istehsal sahələri, xidmət mərkəzləri yaradırlar.

Kənd təsərrüfatı üzrə bir-birimizi tamamlayırıq. Bizə lazım olanı sizdən əldə edirik və bu, əks istiqamətdə də həyata keçirilir. Razılaşdığımız kimi, Rusiya bazarına Azərbaycan kənd təsərrüfatı məhsullarının tədarükünün böyük həcmdə artması uğurla davam edir.



Nəqliyyat-logistika sahəsi ilə bağlı müvafiq sənədlər imzalanıb. Burada həm tranzit daşımalarının, həm də ikitərəfli yük daşımalarının artdığını görürük. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ölkələrimizi birləşdirən layihədir. Azərbaycan ərazisində, eləcə də Rusiya ərazisində infrastruktur mövcuddur, yeganə lazım olan planlaşdırıldığından artıq yük həcmini nəql etmək üçün onun modernləşdirilməsidir.

Əlbəttə ki, humanitar sahə. Burada, zənnimcə, Rusiya ilə Azərbaycan arasında münasibətlər iki qonşu dost dövlətlərin münasibətləri üçün nümunə ola bilər.

davamı səh. 2-də

## Maarifpərvər sələflərinin yaradıcı düşüncəli davamçıları

### Prezident Azərbaycan qadınlarını təbrik edib

Zəngin mənəvi-əxlaqi sərvətlərimizin qorunub saxlanılması və günümüzədək layiqincə yaşadılması analarımızın adı ilə sıx bağlıdır. Gözəlliyi, zərifliyi və nəcibliyi ilə seçilən Azərbaycan qadınları həmçinin hünər və igidlik göstərərək tariximizə parlaq səhifələr yazmışlar. Onlar taleyüklü bütün sınaq anlarında həmişə cəmiyyətimizə əsl mənəvi dayaq olmuş, 44 günlük Vətən müharibəsindəki fədakarlıqları ilə bu gerçəyi bir daha sübuta yetirmişlər.

Bu fikirlər Prezident İlham Əliyevin 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik müraciətində yer alıb.

Təbrikdə qeyd edilir ki, xalqımıza xas ənənəvi ailə dəyərlərinə sadiq qalan çağdaş Azərbaycan xanımları, eyni zamanda, güclü müasirlik duyğusuna və yenilikçi təbiətə sahibdirlər. Mədəni tərəqqi yolunda əzmlə çalışmış maarifpərvər sələflərinin yaradıcı düşüncəli davamçıları kimi onların hazırkı yüksək ictimai nüfuzu və səhiyyə, təhsil, mədəniyyət, elm sahələrindəki mühüm nailiyyətləri ölkəmizin hərtərəfli inkişafının səciyyələndirən amillərdəndir.

"Biz müstəqillik dövrümüzün şərəfli və qürurverici mərhələsindəyik. İnanıram ki, Azərbaycan qadınları gənc nəslin vətənə, milli ideallarımızın təcəssümü olan dövlətçiliyimizə sədaqət ruhunda yetişməsini bundan sonra da xüsusi diqqətdə saxlayacaq, cəmiyyətin yüksəlişinə ahəngdarlıq gətirən dolğun sosial-mədəni fəaliyyətləri ilə parlaq gələcəyimiz naminə quruculuq işlərində yaxından iştirak edəcəklər", – deyə təbrikdə vurğulanır.

## Səhnə arxasında son görüş

Mədəniyyətimizin böyük hamisi Heydər Əliyev teatr sənətinə xüsusi diqqət ayırırdı. Gərgin iş qrafikindən vaxt tapdıqca teatra da gedir, yeni tamaşalara baxırdı. Hər tamaşadan sonra səhnə arxasına keçərək yaradıcı heyətlə səmimi söhbət edər, sənət adamlarının qayğıları ilə maraqlanar, fikirlərini dinləyərdi.

2002-ci ildə Akademik Milli Dram Teatrında Şekspirin "Hamlet" faciəsi yeni quruluşda səhnəyə qoyulmuşdu. Heydər Əliyev teatra gələrək tamaşaya baxdı, sonra yaradıcı heyətlə söhbət etdi. Azərbaycan teatrı, ümumilikdə teatr sənəti, repertuar seçimi, bədii tərtibat, ayrı-ayrı aktyorların oyunu – budəfəki söhbətin mövzu əhatəsi də geniş idi. Bu, Heydər Əliyevin teatr xadimləri ilə son görüşü idi...

Azərbaycan peşəkar milli teatrının yaranmasının 151-ci ildönümü, 10 mart – Milli Teatr Günü ərəfəsində həmin söhbətin mətnini oxuculara təqdim edirik.

səh. 6

## Mədəniyyət naziri Zaqatalada vətəndaşları qəbul edib

2024-cü ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli tərəfindən martın 7-də Zaqatala şəhərində vətəndaşların qəbulu keçirilib.

səh. 2

## Türk dünyasının ilk qadın hökmdarı rənglərin işığında

### "Tomris" sərgisində qardaş ölkələrin rəssamlarının işləri nümayiş olunub

Martın 5-də Heydər Əliyev Mərkəzində Türk dünyası rəssamlarının "Tomris" adlı beynəlxalq sərgisinin açılışı keçirilib. Sərgi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Heydər Əliyev Mərkəzi və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un birgə təşkilatçılığı ilə gerçəkləşib.

Sərginin məqsədi qədim Azərbaycan-türk qədim dövlətçilik tarixinin simvollarından biri, Massaget hökmdarı, qəhrəmanlıq, ədalət örnəyi kimi qəbul olunan Tomris obrazının təsviri sənətdə inikasını göstərməkdən ibarətdir.

Tədbirdə dövlət və hökumət rəsmiləri, millət vəkilləri, Mədəniyyət Nazirliyinin məsul şəxsləri, tanınmış mədəniyyət, incəsənət xadimləri və digər qonaqlar iştirak ediblər.



Mədəniyyət nazirinin müavini Səadət Yusifova qeyd edib ki, təsviri sənətdə Tomris obrazına ilk müraciətlər Orta əsr Qərb rəngkarlığına aiddir. Erkən dövrdə Avropa monastırlarında, Herodotun "Tarix" əsərinə illüstrasiyalarda, sonralar isə Rubens, Kastano, Centileski və s. rəssamların yaradıcılığında Tomris obrazı əksini tapıb.

Diqqətə çatdırılıb ki, XX əsrin ortalarından başlayaraq, təsviri sənətdə Tomris obrazı türk bədii mühitində yenidən canlanır.

davamı səh. 3-də

## Köhnə-yeni səhnələr – uzunömürlü tamaşalar

151 yaşını tamamlayan Azərbaycan peşəkar milli teatrının tarixində yüzlərlə, bəlkə də minlərlə tamaşa olub. Ötən əsrin 20-ci illərində dövlət teatrları şəbəkəsinin təşəkkül tapmasından sonra isə teatrların cari repertuarları daha sistemli və nizamlı şəkil alıb. Tamaşa hazırlığı həm də bu sahədə plana bağlanıb. Bu müddətdə bir (bir neçə) mövsüm səhnədə qalan tamaşalar da olub, illərlə göstərilib seyrçi rəğbəti qazananlar da.

Təbii ki, teatrlar hər zaman cari repertuara rəngarənglik qatmaq, tamaşaçıların diqqətini cəlb etmək üçün mütəmadi olaraq ona əl gəzdirirlər. Üstəlik, mövcud qayda-şərtlərə görə, sırf dövlət sifarişi ilə hazırlanan tamaşa ən azı ona sərf olunan vəsaiti çıxarana qədər cari repertuarda qalmalıdır. Hərçənd burada da suallar yaranır. Əgər tamaşanın bir neçə nümayişdən (aydan) sonra uğursuz olduğu görünürsə, tamaşaçı (yetərincə) cəlb etmirsə, niyə repertuarda saxlanılsın? Amma bu, başqa bir yazının mövzusudur. İndilik isə, mövzumuz teatrlarımızın repertuarındakı ən yaşlı, necə deyərlər, qocaman tamaşalardır. Milli teatr caməəsinin peşə bayramı (10 mart) ərəfəsində bu mənzərəyə nəzər salmaq istədik...

davamı səh. 5-də



## Azərbaycanın turizm imkanları Berlində təqdim olunub




Azərbaycanın turizm imkanları Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə 5-7 mart tarixlərində "ITB Berlin" sərgisində təqdim olunub.

Milli stenddə ölkəmizi AZAL, hotel və turizm şirkətləri daxil olmaqla, ümumilikdə 14 sənaye tərəfdaşı təmsil edib. Sərgi çərçivəsində digər ölkələri təmsil edən turizm sənayesi nümayəndələri ilə B2B formatlı görüşlər keçirilib. Ziyarətçilərə Azərbaycanın UNESCO-nun siyahısına daxil olunmuş mədəni obyektləri, milli mətbəxi, "Slow Food" və "Slow Wine" təcrübələri və digər turizm imkanları barədə ətraflı məlumat verilib.

Azərbaycan stendini Dünya Turizm Təşkilatının (UNWTO) baş katibi Zurab Pololikaşvili, Dünya Səyahət və Turizm Şurasının prezidenti və baş icraçı direktoru Culiya Simpson, ölkəmizin Almaniyadakı səfiri Nəsimi Ağayev ziyarət ediblər.

## "Səni belə xatırladıq"




Filologiya üzrə fəlsəfə doktoru Jalə Cəfərovanın unudulmaz teatr və kino aktyoru, Əməkdar artist Hamlet Xanızadənin (1941–1990) xatirəsinə həsr olunmuş "Səni belə xatırladıq" kitabı çapdan çıxıb. Kitab Mədəniyyət Nazirliyinin dəstəyi ilə ötən il işıq üzü görüb.

Martın 7-də Beynəlxalq Muğam Mərkəzində (BMM) nəşrin təqdimatı keçirilib.

Əməkdar mədəniyyət işçisi Rahib Azərinin aparıcılığı ilə keçən təqdimatda ilk olaraq şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra sənətkarın həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olundu. Rahib Azəri Hamlet Xanızadənin həyat və sənət yolu barədə söhbət açdı. Tədbir boyu aktyorun sənət dostları və ailə üzvləri onunla bağlı xatirələrini və ürək sözlərini bölüşdülər.

davamı səh. 2-də

## Mədəniyyət tariximizdə ilklərə imza atan qadınlar

Ötən yüzillikdə öz yaradıcılıqları ilə Azərbaycan mədəniyyətində silinməz iz qoyan, incəsənətin müxtəlif sahələrində ilklərə imza atan qadın sənətkarlarımız olub. Onların bir neçəsi haqqında qısa söhbət açmaq istəyirik.



Rəssam **Qeysər Kaşıyeva**. 7 iyun 1893-cü ildə Tiflis şəhərində dünyaya göz açan Qeysər Seyfulla qızı Kaşıyeva məktəbli çağlarından təsviri sənətə maraq göstərib, bədii qurama və toxuma işləri hazırlayıb. Bir gün Tiflisdə nəşr olunan "Molla Nəsrəddin" jurnalının alman karikaturaçı rəssamı Oskar Şmerlinq Qeysərin əl işlərinə baxır. Ona Tiflisdə incəsənəti təbliğ edən cəmiyyətin nəzdində rəssamlıq məktəbində təhsilini davam etdirməyi məsləhət görür. Həmçinin cəmiyyətin sədri, rəssam Riçard Zommerdən Qeysər Kaşıyevaya rəssamlığın sirlərini öyrətməyi xahiş edir. Qeysər 1907–1908-ci illərdə burada mükəmməl rəssamlıq təhsili alır.

davamı səh. 5-də




Filmlərimiz Finlandiyada beynəlxalq festivalda

səh. 2



Gənc rəssamın sənətin incəliklərinə "Toxunuş"u

səh.2



# Rusiya Azərbaycanla mədəni əməkdaşlığa önəm verir

## Mixail Mişustin: "Azərbaycan Mədəniyyət Nazirliyi ilə əməkdaşlığın genişləndirilməsi üzrə razılıq əldə etdik"

əvvəli səh. 1-də

Azərbaycanın 26 ali məktəbində rus dilində təhsil həyata keçirilir, 16 min Azərbaycan vətəndaşı olan tələbə rus dilində təhsil alır. Həmçinin 324 orta məktəbdə təhsil rus dilindədir. Biz onilliklər ərzində xalqlarımızı birləşdirən bütün yaxşı cəhətləri qorumuşuq və qarşılıqlı fəaliyyət göstərdiyimiz ictimai-siyasi formasiyadan asılı olmayaraq, xalqlarımız arasında dostluq əlaqələri həmişə dövlətlərarası münasibətlərin bünövrəsi olub. Bu gün isə dövlətlərarası münasibətlərin forma və məzmun etibarilə keyfiyyətcə yeni səviyyəyə yüksəldiyi bir vaxtda, təbii ki, bu, həmçinin ölkələrimizdə ictimaiyyət tərəfindən də dəstəklənir.

Mixail Mişustin çıxışının əvvəlində İlham Əliyevi fevralın 7-də keçirilən prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik edib, dövlətimizin başçısına Rusiya Prezidenti Vladimir Putinin səmimi və xoş arzularını çatdırıb.

"Dövlətlərimizin rəhbərləri arasında qəbul olunan qərarların hamısı daimi nəzarətdədir, hökumətlərimiz tərəfindən icra olunur" deyən Mixail Mişustin həmkarı Əli Əsədovla geniş ikitərəfli gündəliyi müzakirə etdiklərini diqqətə çatdırıb. RF Hökumətinin başçısı da sənayedən mədəniyyətədək əməkdaşlığın bir sıra istiqamətləri ilə bağlı fikirlərini bölüşüb.

Mədəni mübadilədən bəhs edən Mixail Mişustin deyib: "Bu sahədə qarşılıqlı fəaliyyətlə bağlı məsələlər üzrə çoxlu layihələr və ideyalar var. Bu gün Rus Dram Teatrında oldum, orada mədəniyyət sahəsində qarşılıqlı fəaliyyətdən bəhs etdilər. Biz əlaqələrimizin, o cümlədən Azərbaycan Mədəniyyət Nazirliyi ilə əməkdaşlığın genişləndirilməsi üzrə razılıq əldə etdik. Çoxlu sayda tədbirlərin keçirilməsi üzrə Yol xəritəsi üzərində işləyirik. Əlbəttə, Azərbaycanın hörmətli mədəniyyət və incəsənət xadimlərini Rusiyada, Moskvada görməyə şad olacağıq...".

Dövlətimizin başçısı Rusiya Prezidentinin səmimi və xoş arzularına görə minnətdarlığını bildirib, onun da xoş arzularını Vladimir Putinə çatdırmağı xahiş edib.

***

Xatırladaq ki, martın 5-də Bakıda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin arasında təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə görüşlər olub.

Görüşün yekunlarına dair iki ölkə arasında mədəniyyət, turizm sahələrində, eləcə də Azərbaycan-Rusiya dövlət sərhədindən keçid məntəqələrinin və avtomobil yolu infrastrukturunun inkişafına dair əməkdaşlığın gücləndirilməsi üzrə sənədlər imzalanıb.

# İctimai həyatda səmərəli fəaliyyətlərinə görə

Prezident İlham Əliyev martın 7-də Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə bir qrup qadının təltif edilməsi haqqında sərəncam imzalayıb.

8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə imzalanan sərəncamla 12 nəfər "Tərəqqi" medalı ilə təltif olunub. Onların arasında mədəniyyət, elm, təhsil, səhiyyə, vətəndaş cəmiyyəti və digər sahələrdə fəaliyyət göstərən xanımlar var.

# Kinomuzu yaradanlar və yaşadanlar

## Görkəmli sənətkarların rol aldığı filmlər nümayiş olunacaq

Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Respublikası Kino Agentliyi, Nizami Kino Mərkəzi, Azərbaycan Dövlət Film Fondu və Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının təşkilatçılığı ilə "Kinomuzu yaradanlar... Kinomuzu yaşadanlar" adlı layihəyə başlanılıb.

Layihənin məqsədi milli kino ənənələrinin qorunması və gələcək nəsillərə çatdırılmasıdır.

Layihə çərçivəsində il ərzində Nizami Kino Mərkəzində görkəmli kino xadimlərinin iştirakı ilə ərsəyə gətirilmiş Azərbaycan filmlərinin mütəmadi nümayişi təşkil ediləcək. Hər ay bir sənətkarın yaradıcılığı əhatə olunacaq.

Mart ayına nəzərdə tutulan proqramda Xalq artisti, unudulmaz müğənni və aktyor Mirzə Babayevin rol aldığı filmlər nümayiş etdiriləcək.

Aprel ayında isə görkəmli aktyor, Xalq artisti Həsən Məmmədovun çəkildiyi filmlər kinosevərlərə təqdim olunacaq.

Filmlərin nümayiş tarixi və vaxtı haqqında əlavə məlumat veriləcək.

# Gənc rəssamın sənətin incəliklərinə "Toxunuş"u

Martın 6-da Azərbaycan Milli Xalça Muzeyində gənc rəssam Lalə Hüseynovanın "Toxunuş" adlı fərdi sərgisi açılıb.



Muzeyin direktoru vəzifəsini müvəqqəti icra edən Mira Məmmədxanova, Milli İncəsənət Muzeyinin direktoru Şirin Məlikova, Rəssamlar İttifaqının sədr müavini Xalq rəssamı Ağəli İbrahimov, Xalq rəssamları Aydın Rəcəbov və Arif Hüseynov çıxış edərək müəllifin yaradıcılığından danışıb, ona sənət yolunda uğurlar arzulayıblar.

Lalə Hüseynova sərgiyə gələn hər kəsə təşəkkür edib. Bu yolda ona dəstək olan müəllimi və atası Əməkdar rəssam Məmmədhüseyn Hüseynovun əməyini xüsusi vurğulayıb: "Atam mənə sənətin incəliklərini, rəssamlıqda peşəkar düşüncə formalarını, incəsənət tarixi ilə bağlı əsas məqamları aşılayıb. Hər zaman vurğulayır ki, sənət çox zərifdir, çalışmasan, yaratmasan, o səni bağışlamayacaq. Mən də bunu qulaqlarımda sırğa eləmişəm...".

Qeyd edək ki, sərgidə rəssamın 40-dan artıq əsəri nümayiş olunur. Onlar ənənəvi xalça sənətini müasir incəsənət növləri ilə birləşdirərək milli irsimizi keçmişdən gələcəyə daşıyan özünəməxsus nümunələrdir. Burada müəllifin şəxsi kolleksiyasından qrafik əsərləri, türkiyəli yazar Nihal Adsızın "Bozqurdların ölümü" kitabına çəkdiyi illüstrasiyaları, həmçinin Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasından nadir xalçalar yer alır.

"Toxunuş" sərgisi təbiətlə insanın minilliklər boyu davam edən ünsiyyətinin, möhtəşəm vəhdətinin sənət dili ilə ifadəsidir. Buradakı əsərlər 4 təbiət ünsürünün – su, od, hava və torpağın daxili monoloqunun, o cümlədən müəllifin sərhədsiz yaradıcılıq dünyasının, zəngin təxəyyülünün, duyğu və düşüncələrinin mücərrəd şəkildə təqdimatıdır. İnsanın ətraf mühitlə sıx qarşılıqlı əlaqəsini göstərən kompozisiyaların əsas ilham mənbəyi isə mədəni, tarixi cəhətdən dərin fəlsəfi məna daşıyan xalça motivləridir.

"Toxunuş" sərgisi martın 12-dək davam edəcək.

1995-ci ildə anadan olan Lalə Hüseynova Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Təsviri sənət fakültəsini fərqlənmə diplomu ilə baş vurub. Tələbəlik illərindən müxtəlif sərgilərdə iştirak edib, mükafatlara layiq görülüb. 2017-ci ildə Gənclər və İdman Nazirliyinin Gənclər mükafatı ilə təltif olunub. Hazırda Rəssamlıq Akademiyasında çalışır.

**L.Azəri**

# Mədəniyyət naziri Zaqatalada vətəndaşları qəbul edib

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşlarla görüşləri davam edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, hər ay keçirilən görüşlərdə sakinlərin problem və təklifləri dinlənilir.

2024-cü ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli tərəfindən martın 7-də Zaqatala şəhərində vətəndaşların qəbulu keçirilib.

Qəbuldan öncə Ümummilli lider Heydər Əliyevin Zaqatala şəhərindəki abidəsi önünə gül dəstələri qoyularaq əziz xatirəsi ehtiramla yad edilib. Sonra nazir qəbulun keçirildiyi Zaqatala rayon Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə tanış olub.



Qəbulda Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonlarından sakinlər iştirak ediblər.

Vətəndaşların müraciətləri, əsasən, işlə təminat, mövcud problemlər, fəxri adla təltif edilmə, mədəniyyət sahəsi ilə bağlı təklif və digər məsələlərlə bağlı olub.

Nazirliyin məsul əməkdaşlarının da iştirak etdiyi qəbulda hər bir vətəndaşın müraciəti dinlənilib, qeydiyyata götürülüb, araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli ilə bağlı müvafiq tapşırıqlar verilib.

# "Səni belə xatırladıq"

## Unudulmaz aktyor Hamlet Xanızadə haqqında kitab təqdim olundu

əvvəli səh. 1-də

Kitabın redaktoru, yazıçı Mustafa Çəmənli nəşrin ərsəyə gəlməsində göstərdiyi dəstəyə görə Mədəniyyət Nazirliyinə minnətdarlığını bildirdi.

Teatrşünas, professor Məryəm Əlizadə, Xalq artistləri Əbdül Mahmudov, Hacı İsmayılov, "ASAN Radio"nun direktoru Emin Musavi çıxış edərək aktyorun özünəməxsus sənətkarlığından danışdılar.

Vurğulandı ki, Hamlet Xanızadə yaradıcılığı Azərbaycan teatr sənətinin parlaq səhifələrindən birini təşkil edir. O hər an dəyişən, yeniləşən aktyor idi. Qeyd olundu ki, aktyor həyatı düşündə ilkin olaraq tamaşaçının gözləri önündə Topal Teymur obrazı canlanır. Sənətkar Cəlil Məmmədquluzadənin "Ölülər", "Dəli yığıncağı", Nəriman Həsənzadənin "Atabəylər", Nazim Hikmətin "Şöhrət və unudulan adam", Hüseyn Cavidin "İblis", "Xəyyam", "Topal Teymur", Səməd Vurğunun "Vaqif", Vilyam Şekspirin "Antoni və Kleopatra", Fridrix Şillerin "Məkr və məhəbbət" və s. əsərlər əsasında hazırlanmış tamaşalarda müxtəlif xarakterli obrazları böyük sənətkar məharəti ilə yaradıb.

Kino salnaməmizdə də iz qoyan aktyor "Yeddi oğul istərəm", "Qətl günü" və s. filmlərdə yaratdığı parlaq obrazlarla yaddaşlara köçüb.

Sənətkarın bacısı Ofeliya Xanızadə qardaşı ilə bağlı xatirələrini bölüşdü, kitabın ərsəyə gəlməsində zəhməti olanlara təşəkkür etdi. Bildirdi ki, evini bu gün də qardaşının fotoları bəzəyir və həmin şəkillərlə danışır, dərdləşir. Atasının onlara Şekspirin məşhur qəhrəmanlılarının adını qoyduğunu deyən Ofeliya xanım əmisi uşaqlarına da Azərbaycan yazıçılarının məşhur qəhrəmanlarının adının verildiyini qeyd etdi.

Sonda Jalə Cəfərova çıxış edərək kitabın ərsəyə gəlməsində əməyi keçən hər kəsə təşəkkür etdi: "Hamlet Xanızadə 1990-cı ilin 20 Yanvar hadisələrindən sarsılaraq dünyasını dəyişib. Bu gün zalda şəhid anaları iştirak edir. Onlar sənətkarın xatirəsinə ehtiram olaraq tədbirə qatıldılar".

Müəllif bildirdi ki, kitabda aktyorun sənət dostlarının, doğmalarının, eləcə də sənətşünasların xatirələri yer alıb. Kitabda həmçinin aktyorun ömür yolunu, səhnə və kino fəaliyyətini əks etdirən foto və sənədlər toplanıb.

Tədbir boyu aktyorun oynadığı tamaşaların lent yazılarından və çəkildiyi filmlərdən fragmentlər təqdim olundu. BMM-in solistlərinin və Əməkdar artist Teymur Əmrahın ifasında musiqi nömrələri səsləndi.

**Lalə**

# "Baxış – 4" festivalında daha bir tamaşa

## Özünü sənətdə sevənlərin "Akkompaniator"u

Azərbaycan Teatr Xadimləri İttifaqında (ATXİ) fəaliyyət göstərən laboratoriyaların "Baxış – 4" festivalının (4–7 mart) üçüncü tamaşası teatr aləminə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının iki aktyorunu fərqli cəhətdən tanıtdı.



Rejissorluq təhsili alsa da, daha çox aktrisa kimi tanıdığımız Xəyalə Meydanova fransız müəllif Marsel Mituanın "Akkompaniator" pyesini tamaşaya qoyub. Pyesi Azərbaycan dilinə Ayla Osamanova çevirib. Monotamaşada GTT-nin aktyoru Ramil Məmmədov çıxış edir. Səsini, vücudunu, üz cizgilərini məharətlə idarə edən gənc aktyor, əslində, bir tamaşada iki rolda çıxış edir.

Qəza üzündən solo ifaçılıqdan uzaqlaşıb akkompaniator, yəni müşayiətçi kimi çalışmağa məcbur qalan Kişi konsertə gecikən Müğənni ilə bağlı qəribə əhvalat uydurur ki, tamaşaçılar salonu tərk etməsin. Peşəsinin kölgədə qalmasından inciyən Akkompaniator hər məqamda onu üstələyən, tamaşaçıların alqışlarını təkbaşına mənimsəyən müğənnini boğub öldürdüyünü deyir. Həm də öz fikrini elə əsaslandırır ki, adamın səhnə arxasında faciə baş verdiyinə inanmağı gəlir. Sonradan məlum olur ki, Müğənni, sadəcə, tıxaca düşdüyü üçün konsertə gecikir. İstedadından daha çox şəyə və hoqqalarla gündəmdə qalmaq istəyən şou-biznes təmsilçilərindən, ucuz şöhrət axtaranlardan eşitdiyimiz əhvalatlar adamın yadına düşür. Axır ki, özünü konsertə çatdıran Müğənni (Ramil Məmmədov) səhnədə elə bir performans sərgiləyir ki, gördüklərinin fransız müəllifin qələmindən çıxdığını, yaxud rejissor xanımla musiqi tərtibatçısı Aygül İbrahimovanın fantaziyası olduğunu, yoxsa aktyorun improvizesi olduğunu kəsdirə bilmirsən.

Əsərin əsas qayəsini isə – səhnə adamının göz yaşı içində gülüş ömrü yaşadığını anlayırsan. Üstəlik, bu ömrü yaşamağı sevənlər sənəti özündə yaşatmaq istəyənlər yox, özünü sənətdə yaşatmaq istəyənlərdir.

Martın 7-də "Baxış – 4"də sonuncu səhnə əsəri – Stanislav Stratiyevin eyniadlı pyesi əsasında "Avtobus" tamaşası oynanıldı. Əsəri tərcümə edən və quruluş verən Məhəmməd Verdizadədir.

Festivala 10 mart – Milli Teatr Günündə yekun vurulacaq.

**Gülcahan**

# Filmlərimiz Finlandiyada beynəlxalq festivalda

Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Debüt" studiyasında çəkilmiş "İki gün" və "Mozalan" studiyasında istehsal olunan "İkinci planetin qırmızı rəngi" qısametrajlı bədii filmləri martın 6-dan 10-dək Finlandiyada keçirilən 54-cü Tampere Beynəlxalq Film Festivalında iştirak edir.

Nazirliyin keçirdiyi "Böyük Qayıdış" müsabiqəsinin qalibləri olaraq ərsəyə gələn və 44 günlük Vətən müharibəsinə həsr edilmiş filmlərdən "İki gün" Tampere festivalının əsas müsabiqə proqramında, "İkinci planetin qırmızı rəngi" filmi isə "Cənubi Qafqaz nümayişləri" proqramında yer alıb.

Mələk Bayramlı və Təranə Vəliyevanın rol aldığı "İki gün" filminin quruluşçu rejissoru Teymur Qəmbərov, prodüserləri Orxan Abbasov və Lika Qavrişdir.

"İkinci planetin qırmızı rəngi" filminin ssenari müəllifi və quruluşçu rejissoru Azər Quliyev, prodüseri Əli-Səttar Quliyevdir. Filmdə əsas rollarda Rafael Şahbəyli, Diana Hacıyeva, Aydan Həsənzadə və Əli Nəsib çəkiliblər.

# Avropa Yenidənqurma və İnkişaf Bankında Azərbaycan günü

Mənzil-qərargahı Londonda yerləşən Avropa Yenidənqurma və İnkişaf Bankında (EBRD) Azərbaycan günü və Novruz bayramı qeyd edilib.

Tədbirdə EBRD-nin prezidenti Odil Reno-Basso bank ilə Azərbaycan arasındakı uğurlu münasibətlərdən, həyata keçirilən layihələrdən danışıb. O, həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasının – COP29 tədbirinin uğurlu keçirilməsi üçün Azərbaycan tərəfi ilə yaxın əməkdaşlığın vacibliyini bildirib. Qeyd edək ki, COP29 noyabr ayında Bakıda keçiriləcək.

Daha sonra çıxış edən Qafqaz üzrə Regional direktor Alkis Drakinos genişmiqyaslı nəqliyyat və infrastruktur layihələrinin müvəffəqiyyətlə aparılmasına toxunub.

Azərbaycanın Birləşmiş Krallıqdakı səfiri Elin Süleymanov qarşıdan gələn Novruz bayramı, onun tarixi və ənənələri barədə də bəhs edib, yenilik rəmzi sayılan Novruzun regionda və dünyada yeni dövrün başlanğıcı olacağına dair əminliyini bildirib.

Daha sonra tanınmış skripkaçı Ceyla Seyidovanın ifasında Azərbaycan və dünya klassik musiqisindən nümunələr təqdim edilib.

# Türk dünyasının ilk qadın hökmdarı rənglərin işığında

## “Tomris” sərgisində qardaş ölkələrin rəssamlarının işləri nümayiş olunub

*əvvəli səh. 1-də*

Uzun müddət türk sənət dünyasının bir çox nümayəndələri Tomris obrazına müraciətlərində yerli bədii xüsusiyyətlərlə yanaşı, onun ümumtürk mahiyyətini də vurğulamağa çalışıblar. İlk dəfə olaraq TÜRKSOY-a üzv ölkələrin rəssamları tərəfindən yaradılan Tomris obrazı vahid konsept, ümumtürk tarixi-mədəni dəyərləri müstəvisində təqdim edilir.







TÜRKSOY-un baş katibi Sultan Raev 8 Mart – Beynəlxalq Qadınlar Günü ərəfəsində keçirilən sərginin Türk dünyası xalqlarının qadınlara verdiyi önəmin təzahürü olduğunu bildirib: “Tomris mövzulu rəsm sərgisinin ilk dəfə Azərbaycanda təşkil edilməsi heç də təsadüf deyil. Tarixi məlumatlara görə, Tomris xatın bu torpaqlarda yaşayıb və Türk dünyasının ilk qadın hökmdarı ünvanını alıb. “Tomris” sərgisi Türk dünyasının, birliyimizin, dostluğumuzun simvoludur...”.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova vurğulayıb ki, rəssamlarımızın əsərləri ortaq irsimizi, tariximizi və ənənələrimizi ifadə edir: “Bu cür tədbirlərin keçirilməsi ortaq köklərə sahib olan türk xalqları arasında körpülərin qurulmasına öz töhfəsini verir. Sərgidə iştirakınız üçün hər birinizə təşəkkürümü bildirir, sizləri türk xalqlarının sənət dünyasından zövq almağa dəvət edirəm”.

Qazaxıstan Rəssamlar İttifaqının üzvü Botagöz Toleş, “Ədəbiyyat qəzeti”nin baş redaktoru Azər Turan, Azərbaycan Rəssamlar İttifaqı sədrinin birinci müavini Xalq rəssamı Səlhab Məmmədov və Xalq rəssamı Sakit Məmmədov tədbirin əhəmiyyətini vurğulayıb, sərginin təşkilində əməyi keçənlərə təşəkkür ediblər.

Çıxışlardan sonra TÜRKSOY tərəfindən sərgidə əsərləri nümayiş olunan rəssamlara mükafat təqdim edilib. Azərbaycan Mədəniyyət Nazirliyi isə TÜRKSOY-un xüsusi mükafatına layiq görülüb.

Sonda qonaqlar sərgi ilə yaxından tanış olublar.

Qeyd edək ki, sərgidə Mərkəzi Asiya, Türkiyə və Azərbaycanı təmsil edən 20-dən çox rəssamın – Xalq rəssamları Sakit Məmmədov, Arif Əziz, Xanlar Əhmədov (Azərbaycan), Sardor Allaberqenov (Özbəkistan), Refik Aziz (Türkiyə), Sembiqali Smaqulov, Aqimsal Düzelxanov, Ədilğali Bayandı, Tolkın Tabısbek (Qazaxıstan), Talant Oqobayev, Jılkıcı Jakıpov, Eldar Aytmatov (Qırğızıstan) və başqalarının son 30 ildə ərsəyə gətirdikləri 30-dan artıq rəngkarlıq, qrafika və heykəltaraşlıq əsəri yer alıb.

**Nurəddin**

### Birliyimizin təcəssümü

Heydər Əliyev Mərkəzindəki “Tomris” sərgisində əl işləri nümayiş olunan rəssamlardan biri də məşhur qırğız yazıçısı Çingiz Aytmatovun oğlu Eldar Aytmatovdur. Onun təqdim etdiyi “Ölüm kötüyü” tablosu öz adını Çingiz Aytmatovun eyniadlı romanından götürüb.

“Mən bu əsərdə həyat və ölümü təsvir etmişəm və bununla, bu iki hadisənin həyatımızın tərkib hissəsi olduğunu ifadə etməyə çalışmışam”, – deyə o, jurnalistlərə müsahibəsində bildirib.

Rəssam əsərlərinin Bakıda, Heydər Əliyev Mərkəzində nümayiş etdirilməsindən məmnunluğunu diqqətə çatdırıb.



Xalq rəssamı Sakit Məmmədov da sərginin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Türk dünyası rəssamlarını bir araya gətirən, həmrəyliyimizi təcəssüm etdirən sərgi Türkiyə, Qırğızıstan, Qazaxıstan və digər türk respublikalarında da nümayiş olunacaq.

# Beynəlxalq Qadınlar Günü münasibətilə

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Heydər Əliyev Sarayında 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib.

Tədbirdə Prezident İlham Əliyevin Azərbaycan qadınlarına ünvanladığı təbrik məktubu oxunub. Məktubu Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva səsləndirib.

Sonra çıxış edən Dövlət Komitəsinin sədri Bahar Muradova qadınların çalışdıqları sahələrdə uğur qazanmaları üçün ölkəmizdə bütün şəraitin yaradıldığını bildirib. Qeyd edib ki, dövlətimiz tərəfindən qadınların əməyi yüksək qiymətləndirilir, o cümlədən dövlət idarəçiliyində gender amilinə diqqət son illərdə daha da artırılıb. Qadınlar ölkəmizin ictimai-siyası, sosial-iqtisadi, mədəni həyatında fəal iştirak edirlər. Ötən 20 il ərzində Azərbaycan qadınlarının üç qurultayı və bir forumu keçirilib.

Dövlətimizin qadın siyasətindən bəhs edən videoçarx nümayiş olunub.

Bayram tədbiri konsert proqramı ilə davam edib.

# Bülbülün ocağında Süleyman Ələsgərovun xatirəsi yad olunub

Bülbülün Memorial Muzeyi “Bülbülün qonaqları” adlı yeni layihəyə başlayıb. Layihə üzrə ilk tədbir dahi müğənni Bülbülün sənət dostu, onun evində dəfələrlə qonaq olmuş görkəmli bəstəkar, Xalq artisti Süleyman Ələsgərovun (1924–2000) 100 illiyinə həsr edilib.



Muzeyin direktoru Fərqanə Cabbarova qonaqları salamlayaraq layihə haqqında məlumat verib. O, Süleyman Ələsgərovun ailə üzvlərinə – oğlu Arzu Ələsgərova, nəvələri – Əməkdar artistlər Tahir və Cabir İmanov qardaşlarına tədbirdə iştirak etdikləri üçün təşəkkürünü bildirib.

Əməkdar artist Tahir İmanov babası ilə bağlı xatirələrini bölüşüb, onun böyük Bülbüllə olan dostluğundan, doğma Şuşaya son səfərlərindən söhbət açıb. O, Bülbülün ocağında Süleyman Ələsgərovun xatirəsinin yad olunmasından məmnunluğunu bildirib.

Əməkdar artist, vokal ifaçısı Ramil Qasımovun təşəbbüsü və muzeyin iştirakı ilə yaradılan “Bülbül vokal məktəbi”nin tələbələri və Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdləri S.Ələsgərovun əsərlərindən ibarət musiqi proqramı təqdim ediblər.

# Uzaq Filadelfiyada səslənən doğma melodiyalar



Elə xəbərlər var ki, zaman baxımından bir qədər köhnəlsə də, istedadın etirafı, sənətin əbədiliyi, bəxş etdiyi emosiyaların təravəti baxımından təzədir.

Belə xəbərlərdən birini uzaq Amerikadan, Filadelfiyadan aldıq. Dünyaşöhrətli müğənnimiz Müslüm Maqomayevin qızı Marina Maqomayevadan öyrəndik ki, David Qvinianidze Musiqi Mərkəzində yeni bir silsilənin – “Musiqili qonaq otağında görüşlər”in təməli qoyulub.

Böyük müğənninin yadigarı qəzetimizə açıqlamasında deyib:

– Yeni silsilənin ilk proqramı atama həsr olunmuşdu. Silsilənin proqramı elə nəzərdə tutulub ki, tədbirdə müğənnilərin, ifaçıların çıxışları səslənmir, sənətkar barədə xatirələr danışılır, onun ömrünün maraqlı məqamları yada salınır, toplaşanların sualları cavablandırılır. Belə interaktiv yanaşma tamaşaçıları darıxmağa qoymur. Həyat yoldaşım Aleksandr Kozlovski (Müslüm Maqomayevin çox məşhur “Mavi əbədiyyət” mahnısının mətn müəllifi Gennadi Kozlovskinin oğlu – red.) musiqiçi, vokalçı olduğundan həm atamın repertuarından inciləri paylaşdıq, həm də xatirələrimizi bölüşdük. Əvvəlcədən belə qərara gəlmişdik ki, Aleksandrın ifa edəcəyi hər mahnı atamın həyatına aid, yaxşı olar ki, oxunan mahnı ilə bağlı hansısa əhvalatla müşayiət olunsun. Beləliklə, Müslüm Maqomayevin xatirəsinə həsr olunmuş tədbir maraqlı keçdi. Tədbirdə atamın özünün yazdığı mahnılar, həmçinin görkəmli Azərbaycan bəstəkarları Niyazi və Tofiq Quliyevin bəstələri səsləndi.

**Gülcahan**

# Mədəniyyət ocaqlarında bayram havası

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan Mərdəkan Mədəniyyət Sarayında 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib.

Tədbirin aparıcısı bayram münasibətilə xanımlara xoş diləklərini çatdırıb. Qeyd edib ki, Azərbaycan qadını həmişə mətanəti, sədaqəti, milli-mənəvi dəyərlərimizə bağlılığı ilə cəmiyyət və dövlət həyatında mühüm rol oynayıb.




Bədii hissədə mədəniyyət ocağının bədii qiraət dərnəyinin üzvləri şeirlər səsləndirib, Şuşa şəhər Bülbülcan adına Uşaq musiqi məktəbinin istedadlı tələbələri musiqi nömrələri, kompozisiya nümayiş etdiriblər. “Lalələr” rəqs ansamblının çıxışları isə tədbirə xüsusi rəng qatıb.

***



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan Aşıq Rza Qobustanlı adına Mədəniyyət evi və “Şəngülüm” uşaq bağçasının təşkilatçılığı ilə Od çərşənbəsi (5 mart) və 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bayram konserti keçirilib.

Əvvəlcə bayramlar münasibətilə təbriklər səsləndirilib.

Mədəniyyət evinin özfəaliyyət kollektivi tərəfindən musiqi və rəqs nömrələri ifa olunub, maraqlı və əyləncəli oyunlar təqdim edilib.

# Tanınmış pedaqoq Səidə İmanzadə haqqında kitabın təqdimatı

Azərbaycan Milli Kitabxanasında ölkəmizdə qadın hərəkatının görkəmli nümayəndəsi, ictimai-siyasi xadim, Əməkdar müəllim Səidə İmanzadənin (1910–1992) xatirəsinə həsr olunmuş kitabın təqdimat mərasimi keçirilib.

Tədbiri açan Milli Kitabxananın direktoru professor Kərim Tahirov qeyd edib ki, Səidə İmanzadə xalqın maariflənməsi yolunda mühüm xidmətlər göstərib, cəhalətə və savadsızlığa qarşı ümumxalq hərəkatının önündə gedən xanımlardan biri olub.

Tarix elmləri doktoru Dilarə Seyidzadə kitabın önəmini vurğulayaraq bildirib ki, Səidə xanımın obrazı, onun irsinin öyrənilməsi bugünkü gəncliyimiz üçün çox önəmlidir.

Səidə İmanzadənin tələbəsi olmuş Milli Məclisin deputatı, professor Anar İsgəndərov onu milli ruha sahib xanım, tələbələrinə sevgi və qayğı ilə yanaşan pedaqoq kimi xarakterizə edib. BDU-nun kafedra müdiri professor İradə Hüseynova, Səbail rayon icra başçısının müavini Kəmalə Həşimova, digər çıxış edənlər Səidə İmanzadənin elmi, pedaqoji və ictimai fəaliyyətindən söz açıblar.

Səidə xanımın oğlu Mübariz İmanzadə tədbirin iştirakçılarına təşəkkürünü bildirib.

# “Kür – çaylar anası”

## Sənədli film çəkiləcək



Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) tərəfindən keçirilmiş müsabiqədə qalib olan film layihələrinin dövlət sifarişi ilə istehsalına başlanılıb.

ARKA-dan bildirilib ki, müsabiqənin dövlət sifarişi istiqaməti üzrə çəkiləcək “Kür - çaylar anası” sənədli film layihəsi ilə bağlı istehsal müqaviləsi bağlanılıb. Filmin bu ilin dekabr ayında təhvil verilməsi nəzərdə tutulub.

“OD Media Production” şirkəti tərəfindən ərsəyə gələcək filmin rejissoru Seyran Bədəlov, ssenari müəllifi Əkbər Nəcəflidir.

Çəkilişlər Kür çayının mənbəyindən mənsəbinədək – Türkiyə, Gürcüstan və Azərbaycan ərazisində aparılacaq.

# ICESCO-nun gənc sülh elçiləri

## 68 ölkədən gənclər arasında azərbaycanlı da var

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) liderlik treninqi proqramı çərçivəsində 68 ölkədən 100 gənci təşkilatın sülh elçisi seçib. Onların arasında Misirdə yaşayan azərbaycanlı gənc Sandi Səlim də var.

Sandi Səlim Qahirədə tibb təhsili alır. O, həmçinin Misirdə patentləşdirilən bir sıra ixtiranın müəllifidir.

Uqandanın Kampala şəhərində gənc sülh elçilərinə sertifikatların təqdim olunması mərasimində çıxış edən ICESCO-nun baş direktoru Salim əl-Malik bildirib ki, bu gənclər münaqişələr və müharibələr şəraitində müsbət dəyişiklikləri təbliğ edən sülh səfirləri olacaqlar. Baş direktor təşkilatın 2025-ci ilə qədər 500 gənc sülh səfirini müəyyən etmək niyyətini də ifadə edib.

Mərasimdə çıxış edən gənc sülh elçiləri öz ölkələrində və müxtəlif beynəlxalq təşkilatlarda bu istiqamətdə səylərini gücləndirəcəklərini bildiriblər, həmçinin sosial mediada sülhün təbliği, ekstremizmin bütün təzahürlərinə qarşı mübarizə sahəsində daha fəal olacaqlarını bəyan ediblər.

# Dünyada qızların təhsili

## UNESCO 8 Mart ərəfəsində hesabat hazırlayıb

UNESCO-nun Beynəlxalq Qadınlar Günü ərəfəsində dərc edilmiş hesabatı göstərir ki, qızların təhsilinə qoyulan sərmayə son iyirmi ildə böyük dividentlər qazandırıb. İndi məktəbə getməyən qızlar (122 milyon) oğlanlardan (128 milyon) az olsa da, son rəqəmlərdə təhsilə cəlb olunan qızların sayı artmaqdadır.

UNESCO-nun saytında yer alan “Onun təhsili, bizim gələcəyimiz” adlı hesabatda dünyanın müxtəlif region və ölkələrində qızların təhsili ilə bağlı vəziyyət təhlil edilib. Hesabatda deyilir: “1995-ci ildə Pekin Fəaliyyət Platforması ölkələri təhsildə gender ayrı-seçkiliyini aradan qaldırmağa çağırdı. UNESCO-nun bütün dünyada qızların və qadınların təhsil hüquqlarını araşdıran interaktiv aləti olan “Her Atlas” proqramına görə, bu gün 105 ölkə öz konstitusiyalarında həmin ayrı-seçkiliyi qadağan edir”.

Hesabatda diqqətə çatdırılıb ki, qlobal rəqəmlərin arxasında ciddi problemlər də qalmaqda davam edir. Qızların məktəbdən kənarda qalma səviyyəsinin ən yüksək olduğu 10 ölkə var. Onlardan doqquz Afrikadadır, ən ağır vəziyyət isə Əfqanıstandadır. Bu ölkədə məktəbyaşlı qızların 75 faizi təhsildən kənarda qalıb.

Məlumatlar göstərir ki, həmin ölkələrdə məktəbyaşlı ən yoxsul gənc qızların 10 nəfərindən ən azı 7-si məktəbə getmir. Qvineya və Malidə demək olar ki, heç bir yoxsul qız təhsilə cəlb edilməyib. Kot-d’İvuar məktəblərində şagirdlərin yalnız beşdə biri qızlardır.

# Müəlliflik hüquqlarını qeydə aldıranların sayı artır

2023-cü ildə Əqli Mülkiyyət Agentliyi tərəfindən 386 müəllifin (hüquq sahibinin) 713 əsəri qeydiyyatdan keçirilib. Bu, 2022-ci illə müqayisədə 20 faiz çoxdur. O cümlədən, 324 müəllifin 626 əsəri “Elektron xidmət” bölməsi vasitəsilə qeydiyyata alınıb.

Bu barədə Əqli Mülkiyyət Agentliyinin məlumatında bildirilir.

Ötən il Əqli Mülkiyyət Agentliyində əlaqəli hüquqların obyektləri kimi 162 ifa (2022-ci ildə 46 ifa) və 37 kompüter proqramı (2022-ci ildə 18 kompüter proqramı) qeydiyyata alınıb.

Ümumilikdə isə əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən indiyə qədər 16 minə yaxın əsər və əlaqəli hüquqların obyektləri qeydiyyatdan keçirilib.

Əqli Mülkiyyət Agentliyi müəlliflərə (hüquq sahiblərinə) xatırladır ki, əsərə olan hüquqların qorunması və müdafiəsi üçün ən etibarlı vasitə onların qeydiyyata alınmasıdır. Agentlik tərəfindən qeydiyyat prosesinin asanlaşdırılması üçün hər cür şərait yaradılıb. Müəlliflər (hüquq sahibləri) agentliyə gəlmədən “Elektron hökumət” portalı vasitəsilə əsərlərini qeydiyyatdan keçirmək imkanına malikdirlər.

## “Adın müqəddəsdir sənin, ey qadın...”

Bölgələrdəki mədəniyyət müəssisələrində xanımların bayramı ilə bağlı tədbirlər keçirilib.



Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyində 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş “Adın müqəddəsdir sənin, ey qadın” adlı tədbir keçirilib. Çıxışlarda qeyd olunub ki, Azərbaycan qadını öz zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası, yüksək analıq keyfiyyəti ilə hər zaman xalqımızın adını uca tutub.

Bədii hissədə ədəbi-bədii kompozisiya, videoçarxlar nümayiş olunub, rayonun tanınmış incəsənət ustaları tərəfindən mahnı və şeirlər səsləndirilib.

Qusar rayon Mədəniyyət Mərkəzində “Qayı Bulax” və “Şahnabat” xalq kollektivlərinin iştirakı ilə “Bayramınız mübarək, əziz qadınlar!” adlı konsert keçirilib. Müğənnilərin solo ifaları, “Ləzginka”, “Ləzginka Assa” rəqs qruplarının çıxışları və yumoristik səhnəcik nümayiş etdirilib.

***

Cəbrayıl rayon Karxulu, Xələfli, Qaracallı, Şıxlar, Hovuslu, Qovşudlu kənd klubları və rayon MKS-nin İsaxlı kənd kitabxana filialının (Biləsuvar rayonu) əməkdaşları 44 günlük Vətən müharibəsinin şəhid baş leytenantı Təhmasib Mustafayevin ailəsini ziyarət ediblər. Ailədəki xanımlara, xüsusilə də, şəhidin yadigarı Faidə balaya Beynəlxalq Qadınlar Günü münasibətilə təbriklərini çatdırıblar.

***



Astara rayon Heydər Əliyev Mərkəzində “Ümummilli lider Heydər Əliyev və qadın siyasəti” mövzusunda tədbir keçirilib. Bildirilib ki, 1993–2003-cü illərdə Ulu öndər tərəfindən qadınlarla bağlı imzalanmış fərman və sərəncamlar Azərbaycanda dövlət qadın siyasətinin formalaşmasına böyük təkan verib. Çıxışlardan sonra şagirdlərin sualları cavablandırılıb.

Lerik rayon Heydər Əliyev Mərkəzində “Qadın gülərsə, bəşəriyyət gülər” mövzusunda bilik yarışı təşkil edilib. Yarışmada rayonun mədəniyyət müəssisələrində çalışan qadınlardan ibarət komandalar iştirak ediblər. Rayon Mərkəzi Kitabxananın “Xəmsə” komandası I yerə layiq görülüb. Qalib komanda və yarışda fəal iştirak edən digər komandalar diplomlarla təltif olunublar.

## Kukla teatrı böyükləri də dəvət edir

Salyan Dövlət Kukla Teatrında təkcə uşaqlar üçün tamaşalar hazırlanmır. Martın 5-də kollektiv Əbdürrəhim bəy Haqverdiyevin “Pəri cadu” əsəri əsasında səhnələşdirilən tamaşanın premyerasını edib.



Tamaşanın quruluşçu rejissoru Laləzər Hüseynova, quruluşçu rəssamı Ceyhun Rüstəmbəyli, rəssamı Gülay Abasova, musiqi tərtibatçısı Elvin İsayev, rejissor assistenti Aynur Ağalarovadır. Rolları Böyükağa Mehdizadə, Nərmin Hüseynli, Röyal Qurbanov, Maytab Gözəlova, Mədinə Ramazanova, Mirxədicə Mirzəyeva və başqaları ifa edirlər.

Xeyir (Mələk) və Şərin (İblis) daimi mübarizəsindən bəhs edən əsər teatrsevərlər tərəfindən rəğbətlə qarşılanıb.

## Laçında və Füzulidə ilk dəfə buraxılış imtahanları keçiriləcək

Martın 10-da Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən işğaldan azad olunmuş Laçın, Füzuli və Zəngilan rayonlarında da buraxılış imtahanı təşkil ediləcək.

DİM ilk dəfə yeni istifadəyə verilmiş Laçın şəhər 2 nömrəli tam orta məktəbi, Zabux kənd tam orta məktəbi və Füzulidə Mirzə Uluqbəy adına 1 nömrəli məktəbdə buraxılış imtahanı keçirəcək. Zəngilan rayonunun Ağalı kəndindəki orta məktəbdə isə bu il ikinci buraxılış imtahanı olacaq.

Xatırladaq ki, martın 10-da buraxılış imtahanı respublikanın 33 şəhər və rayonunda təşkil olunacaq. Bundan öncə, martın 3-də 30 şəhər və rayonda imtahan keçirilib.

## Sağlamlıq idmandan başlayır

Hər il martın 5-i ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd olunur. Bu tarix Prezident İlham Əliyevin 2005-ci il 4 mart tarixli sərəncamına əsasən qeyd edilir.

Əlamətdar gün münasibətilə Neftçala rayon Heydər Əliyev Mərkəzində “Göy qurşağı” rəsm dərnəyinin müsabiqəsi təşkil olunub. Müsabiqədə 20 yeniyetmə və gənc verilən birsaatlıq müddətdə idman mövzusunda sərbəst texnika seçimi ilə rəsm çəkib. İki yaş qrupunda Aysu Məmmədli və Ayla Nağıyeva I, Məryəm Babaşova və Fizzə Məmmədova II, Zəhra Oruclu və Aydan İsazadə isə III yerlərə layiq görülüblər.

***

Kəlbəcər rayon MKS-nin (müvəqqəti Gəncə şəhərində yerləşir) Oxuculara xidmət və Uşaq şöbələri “İdman uşaqların gözü ilə” başlıqlı sərgi keçirib. Uşaqların əl işləri nümayiş olunub.

Şərqi Zəngəzur RMİ, RTİ və RGİİ-nin birgə təşkilatçılığı ilə “Yaşıl dünya və idman uşaqların gözü ilə” adlı rəsm sərgisi keçirilib.

***

Astara rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsində “Sağlamlığın yolu idmandan başlayır” mövzusunda tədbir keçirilib.

Masallı Dövlət Rəsm Qalereyasında isə “İdman və yaşıl dünya” başlığı altında sərgi təşkil edilib. Sərgidə idman mövzusunda Qüdrət Babayev adına Mahmudavar kənd ümumi orta məktəbin şagirdləri Əlihüseyn Əsgərov, Günel Sadıqova, Aylin Nəsirova, Səbinə Axundova və Tunay Əzimovanın əl işlərindən ibarət rəsm əsərləri nümayiş olunub.

**Hazırladı: N.Məmmədli**

# Bölgələrdə Od çərşənbəsi ilə bağlı tədbirlər

Novruzun ikinci müjdəçisi – Od çərşənbəsi ölkəmizin bütün bölgələrində müxtəlif tədbirlərlə qeyd olunub.





Zəngilanın Ağalı kənd körpələr evi-uşaq bağçasının balaca sakinləri Od çərşənbəsini sevinclə qarşılayıblar. Bağçanın həyətində kiçik tonqal qalanıb. Ocaq kənarında baharın gəlişini xəbər verən səməni qoyulub. Müəllim və uşaqlar birlikdə tonqal ətrafında yallı gediblər. Balacalar tonqal üstündən atılıb, həmçinin milli musiqi sədaları altında rəqs edərək əylənib, bahara aid şeirlər səsləndiriblər.

***





Füzuli şəhərindəki Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə Od çərşənbəsi ilə bağlı tədbirdə adət-ənənələrimizi əks etdirən milli atributlar və əşyalar, həmçinin şirniyyatlar nümayiş olunub. Məktəblilər milli geyimlərdə yallı gediblər. Hazırlanan səhnəciklər maraqla qarşılanıb. Şagirdlər yumurta döyüşdürüb, digər oyunlar oynayıb, musiqi sədaları altında rəqslər ediblər.

***

İsmayıllı rayonunun Lahıc qəsəbəsində Novruzun ikinci çərşənbəsi olan Od çərşənbəsi qeyd edilib. Tədbirdə “Lahıc” xalq folklor kollektivinin, İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin “Niyal” instrumental ansamblının ifasında Novruz bayramına həsr edilən mahnılar səsləndirilib, rayon sakinləri təbiətin oyanışının rəmzi olan bayram tonqalı ətrafında yallı gediblər.

***

Salyan Tarix-Diyarşünaslıq Muzeyində keçirilən musiqili tədbirdə milli adət-ənənələrimizi əks etdirən eksponatlar və Novruz atributları sərgilənib, iştirakçılar arasında müxtəlif xalq oyunları nümayiş olunub.





Salyan rayon Mədəniyyət Mərkəzi və Kürqaraqaşlı kənd Diyarşünaslıq evinin birgə təşkilatçılığı ilə Od çərşənbəsinə həsr olunan bayram tədbiri keçirilib. Novruz adət-ənənələrini özündə əks etdirən nümunələr və kompozisiyalar təqdim edilib. “Cəngi” milli nəfəsli folklor xalq kollektivi, Əməkdar artist Həsənağa Sadıqov adına “Mahirlər” ailə xalq ansamblı, “Gənclik” instrumental xalq ansamblı və solistlərin ifasında konsert proqramı təqdim olunub. Sonda “Hünər” sirk-estrada kollektivinin pəhləvan və idmançıları maraqlı nömrələr nümayiş etdiriblər.

***

Ağstafa rayon Hüseyn Arifin Ev-Muzeyində Qazax-Tovuz Regional Mədəniyyət İdarəsinin (RMİ) təşəbbüsü ilə Od çərşənbəsi, eyni zamanda Hüseyn Arifin (1924 –1992) 100 illiyinə həsr olunmuş “Yadıma bahar düşür” adlı tədbir keçirilib. Çıxış edənlər unudulmaz şair Hüseyn Arifin Azərbaycan poeziyasına verdiyi töhfələrdən danışıblar. Sonra sac üstündə yuxa salınıb, samovarlar qalanıb, tədbir iştirakçılarına adətlərimiz təbliğ olunub.

***

Gəncə-Daşkəsən RMİ-nin tabeliyində fəaliyyət göstərən müəssisələrdə də Od çərşənbəsi ilə bağlı müxtəlif tədbirlər keçirilib.

***

Od çərşənbəsi münasibətilə Lənkəran Dövlət Dram Teatrının heyəti şəhərdə yerləşən N saylı hərbi hissədə hərbçilərin övladları üçün “Karlsonun macəraları” tamaşasını nümayiş etdirib. Tamaşadan əvvəl Novruzun atributlarından olan Kosa ilə Keçəl uşaqlarla söhbət edib, oyunlar oynayıb. Sonra səhnə əsəri nümayiş olunub. Anar Babalının A.Lindqrenin “Balaca və Karlson” əsəri əsasında quruluş verdiyi tamaşada rolları Gülər Kərimova, Günel Abbaszadə, Vəfa Hacızadə, Teymur Hacızadə və Nizami Qurbanov ifa ediblər.

## “Daşa can verib “Küləklə sovrulan”

### Şəhid heykəltaraşın yaradıcılıq sərgisi

Şamaxı Rayon İcra Hakimiyyəti və Dağlıq Şirvan RMİ-nin birgə təşkilatçılığı ilə Şamaxı Yaradıcılıq Mərkəzində Aprel döyüşləri (2016) şəhidi, heykəltaraş Samir Kaçayevin xatirəsinə həsr edilmiş “Daşa can verib “Küləklə sovrulan” adlı yaradıcılıq sərgisi keçirilib.



Əvvəlcə şəhidin Çuxuryurd kəndində yerləşən məzarı ziyarət olunub. Çıxış edənlər Samir Kaçayevin həyat və yaradıcılığından, onun yüksək vətənpərvərliyindən söz açıblar.

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov şəhidin ailə üzvlərinə başsağlığı verib, torpaq uğrunda şəhid olmağın ən ali, uca zirvə olduğunu qeyd edib.

Samir Kaçayev 1994-cü il martın 6-da Şamaxı rayonunun Çuxuryurd kəndində dünyaya gəlib. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasından məzun olub. Həmin təhsil ocağının magistr pilləsinə daxil olub. Lakin Vətənə olan borcu təhsilindən üstün tutan Samir hərbi xidmətə yollanıb. 2016-cı ilin Aprel döyüşlərində Talış kəndi istiqamətində qəhrəmancasına şəhid olub. Ölümündən sonra “İgidliyə görə” medalı ilə təltif edilib.

## Şair Ramiz Qusarçaylının 65 illik yubileyi qeyd olunub

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanasında Yazıçılar Birliyi Quba bölməsinin sədri, şair-publisist Ramiz Qusarçaylının 65 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.



B.Səfəroğlu adına rayon Mədəniyyət Mərkəzinin direktoru Ramiz Ramazanov şairin yaradıcılığından bəhs edib.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Lətifə Məmmədova və “Yazıçı qadınlar” jurnalının təsisçisi və baş redaktoru Nüşabə Məmmədli şairin poeziyasının məziyyətlərindən danışıblar.

Tədbir çərçivəsində R.Qusarçaylının “Azərbaycan bayrağı” şeiri səsləndirilib, sözlərinə yazılmış mahnılar ifa olunub.

Sonda şair tədbirin təşkilində əməyi keçən hər kəsə təşəkkürünü bildirib. Yubilyara Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin fəxri fərmanı təqdim olunub.



# Bir rəssamın sənət dünyası

Azərbaycanın Naxçıvan bölgəsi də tarixi-mədəni zənginlikləri ilə tanınır. Bu diyarda müxtəlif sənətkarlıq sahələri ən əski çağlardan inkişaf edib. Əcəmi Naxçıvaninin adı ilə məşhur olmuş memarlıq məktəbini, onun yadigar qoyduğu abidələri qeyd etmək kifayətdir ki, burada formalaşmış sənət ənənələri haqqında təsəvvür yaransın.

Naxçıvanda təsviri və dekorativ-tətbiqi sənətin də kökləri qədim dövrlərə gedib çıxır. Tarixin müxtəlif mərhələlərində bu sənət sahələri ustalar tərəfindən nəsildən-nəslə ötürülərək yaşadılıb. Bu yazıda rəssam, dekorativ-tətbiqi sənət ustası Səkinə Qarayeva haqqında söz açacağıq.

Səkinə Əvəz qızı Qarayeva 1969-cu ildə Naxçıvan şəhərində anadan olub. 10 yaşından başlayaraq, sənətə meyil göstərib. Məktəbli qızın zövqlə ərsəyə gətirdiyi əl işləri mütəxəssislər tərəfindən təqdirlə qarşılanıb.

1984-cü ildə Səkinə Qarayevanın Naxçıvan şəhərindəki “Gənc texniklər” mərkəzində metal üzərində döymə nümunələri və rəsm əsərlərindən ibarət ilk sərgisi təşkil olunub. Bu sərgi onun yaradıcılıq həvəsini daha da artırıb, sənət axtarışlarına sövq edib. Sonra Naxçıvanda və Bakıda təşkil olunan sərgi və müsabiqələrdə iştirak edib, uğurlar qazanıb.



Qəlbən bağlandığı bu sənət üzrə xüsusi təhsil almaq, yaradıcı baxışlarını dərinləşdirmək istəyi onu rahat buraxmayıb. Orta məktəbi bitirib, 1986–1988-ci illərdə Bakı şəhərindəki 84 nömrəli texniki peşə məktəbinin reklam üzrə tərtibatçı bölməsində təhsil alıb. Naxçıvana qayıdıb ixtisası üzrə əmək fəaliyyətinə başlayıb. 1997–1999-cu illərdə Moskvada əl işləri və muncuqlarla toxuma üzrə təlim kurslarında oxuyub, yaradıcılıq təcrübəsini və istiqamətlərini daha da genişləndirib.

2008-ci ildə Naxçıvan Muxtar Respublikası Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Səkinə Qarayevanın dekorativ əl işləri və kətan üzərində yağlı boya ilə işlədiyi əsərlərindən ibarət sərgisi keçirilib. 2015-ci ildə Naxçıvanda dekorativ əl işləri sərgisində iştirak edib. Həmin il muxtar respublikanın “Rəşadətli əməyə görə” medalı ilə təltif olunub.

2015-ci ildə NMR Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına sərgi salonunda, 2018-ci ildə Bakıda sərgiləri keçirilib. 2021-ci ildə Naxçıvan şəhərində müəllifin “Nizami Gəncəvi İli” çərçivəsində təşkil olunan “Xəmsə” möcüzəsi” sərgisi böyük maraqla qarşılanıb. Sərgidə “Xəmsə” motivli metal üzərində döymə, piroqrafiya (taxta üzərində yandırma) və digər texnikalarda hazırladığı əsərləri nümayiş etdirilib.

2023-cü ildə Naxçıvan MR-də Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar təşkil olunmuş rəsm və əl işlərindən ibarət sərgilərdə də Səkinə Qarayevanın yüksək məharətlə yaratdığı əsərləri nümayiş olunub, fəxri fərman və diplomlarla mükafatlandırılıb.

Səkinə Qarayeva 2022-ci ildə NMR Rəssamlar Birliyinin üzvü seçilib. Rəssama yeni yaradıcılıq uğurları arzulayırıq.

**Yaqut Quliyeva**
**NMR Dövlət Uşaq Filarmoniyasının bədii rəhbəri**

# Köhnə-yeni səhnələr – uzunömürlü tamaşalar



əvvəli səh. 1-də

Başlayaq Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrından.

Milli operamızın banisi Üzeyir Hacıbəylinin səhnəmizi bir əsrdən çoxdur (fərqli quruluşlarda) bəzəyən "Leyli və Məcnun"unu, 1937-ci ildə premyeradan sonra, demək olar ki, səhnədən düşməyən (yenə fərqli rejissor yozumlarında) "Koroğlu" kimi ölməz əsərlərini hesaba almasaq, teatrın qocaman tamaşaları sırasında Cüzeppe Verdinin "Aida" operası ilk sıradadır. Tamaşa 1965-ci ildə gürcü rejissoru M.Kvaliaşvili tərəfindən hazırlanıb və o vaxtdan səhnədədir. Hazırda tamaşanın musiqi rəhbəri – dirijoru Xalq artisti Yalçın Adıgözəlovdur. C.Verdinin "Riqoletto" operası isə 1976-cı ildən (quruluşçusu B.Massini) oynanılır.

Adolf Adanın əsrarəngiz "Jizel" baleti də qocamanlar sırasındadır. 1961-ci ildə SSRİ Xalq artisti Qəmər Almaszadə tərəfindən xoreoqrafik quruluş verilən balet hələ də sevilərək baxılır. İkipərdəli klassik baletin libretto müəllifləri İ.Qotye, V.Sen-Jorja, J.Korallidir. Hazırda baletin dirijoru Əməkdar artist Əyyub Quliyevdir.

Fikrət Əmirov yaradıcılığının şah əsərləri sayılan ecazkar "Min bir gecə" baleti isə 1979-cu ildə Əməkdar incəsənət xadimi Nailə Nəzərova tərəfindən səhnələşdirilib və mütəmadi oynanılır. Baletin librettosunu Maqsud və Rüstəm İbrahimbəyovlar yazıblar.

***

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının ən köhnə tamaşası Xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında hazırlanan "Qarabağnamə"dir. Xalq artisti Mərahim Fərzəlibəyovun quruluş müəllifi olduğu tamaşa 2011-ci ildən repertuardadır. Səhnə tərtibatını Əməkdar rəssam İsmayıl Məmmədov verib.

Teatrın uzunömürlü tamaşaları siyahısında elə həmin ildə hazırlanan "Sərgüzəşti-vəziri-xani-Lənkəran" da var. Mirzə Fətəli Axundzadənin ölməz əsərinə quruluşu mərhum rejissor, Əməkdar incəsənət xadimi Vaqif İbrahimoğlu vermişdi, səhnə tərtibatını isə mərhum rəssam Rəşid Şerif hazırlamışdı.

A.Saqarelinin "Xanuma"sı da 2011-ci ildə yeni quruluşla teatrın səhnəsinə çıxıb. Tamaşanın quruluşçu rejissoru Mikayıl Mikayılov, quruluşçu rəssamı Mustafa Mustafayevdir.

***

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında 1998-ci ildən yeni quruluşda repertuara daxil edilən "O olmasın, bu olsun" (Üzeyir Hacıbəyli) ən uzunömürlü tamaşa sayılır. İkihissəli musiqili komediyanın quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimovadır.

Rauf Hacıyev yaradıcılığından "Talelər qovuşanda" adlı ikihissəli operetta 2003-cü ildən cari repertuardadır. Nümunənin quruluşçu rejissoru Faiq Zöhrabov, quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Nazim Hacıəlibəyov, quruluşçu rəssamı İsmayıl Məmmədovdur.

Üzeyir Hacıbəylinin "Arşın mal alan"ı isə 2009-cu ildən yeni quruluşda repertuara daxil edilib. Operettanın quruluşçu rejissoru Elvin Mirzəyevdir. Yaradıcı heyətdə həmçinin dirijor Fəxrəddin Atayev (Əməkdar incəsənət xadimi), quruluşçu rəssam Nabat Səmədova (Əməkdar rəssam), quruluşçu baletmeysterlər Zakir və Yelena Ağayevlər (Əməkdar artistlər) və başqaları var.

Teatrın repertuarında uzun ömür qazanan uşaq və yeniyetmələr üçün tamaşalardan "Qızıl cücə" (V.Ulyanovski, V.Orlov; 1989-cu il) və "Qırmızıpapaq" (E.Sabitoğlu, Y.Şvarts; 1994) da var.

***

Akademik Rus Dram Teatrının cari repertuarındakı ən uzunömürlü tamaşa M.F.Axundzadənin 200 illik yubileyinə töhfə olaraq hazırlanan və 2011-ci ildə səhnəyə çıxan "Müsyö Jordan və dərviş Məstəli şah"dır. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Aleksand Şarovski, quruluşçu rəssamı Nikita Sazanov (Rusiya), geyim üzrə rəssamı Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfovadır. Xalq artisti Məbud Məhərrəmov bu illərdə Müsyö Jordanı yorulmadan oynayıb.

***

Dövlət Gənc Tamaşaçılar Teatrının repertuarının ən yaşlısı bu günlərdə premyerasının 30 illiyini qeyd etdiyi "Bir dəlinin qeydləri"dir. N.Qoqolun əsəri 1994-cü ildə Xalq artisti Cənnət Səlimovanın quruluşunda teatrsevərlərə təqdim olunub. Əməkdar artist Şövqi Hüseynovun oynadığı monotamaşa xarici festivallarda da uğurla nümayiş olunur.

Uşaqlar üçün hazırlanan "Göyçək Fatma" tamaşası da 2011-ci ildən bəri repertuardadır. Azərbaycan xalq nağılı əsasında hazırlanan tamaşaya Cənnət Səlimova quruluş verib.

"Mənim ağ göyərçinim" (Tamara Vəliyeva) də teatrın repertuarındakı uzunömürlü nümunələrdən sayılır. 20 Yanvar qurbanlarına həsr olunan və 2013-cü ildə premyerası keçirilən bu tamaşanın da quruluşçu rejissoru Cənnət Səlimovadır.

***

İrəvan Dövlət Azərbaycan Dram Teatrının ən qocaman nümunəsi Əməkdar incəsənət xadimi, şair-dramaturq Hidayət Orucovun "Məhəbbət yaşayır hələ" əsəridir. 1976-cı ildə – hələ teatr İrəvanda fəaliyyət göstərərkən hazırlanan tamaşaya mərhum rejissor, pedaqoq Nəsir Sadıqzadə quruluş vermişdi. Səhnə işi 2000-ci ildə isə mərhum Xalq artisti Vaqif Əsədovun quruluşunda yenidən ərsəyə gəlib.

Hidayət Orucovun "Burdan min atlı keçdi" əsəri də 2014-cü ildən teatrın repertuarındadır. İkihissəli xronoloji tarixi dramın quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmovdur.

***

Şuşa Dövlət Musiqili Dram Teatrının ən qocaman səhnə işi M.F.Axundzadənin 200 illik yubileyi münasibətilə hazırlanan "Sərgüzəşti-vəziri-xani-Lənkəran" (2012-ci il) tamaşasıdır. Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Loğman Kərimov, quruluşçu rəssamı Xalıq Cabbarovdur.

Burada bir haşiyə də çıxım ki, yaradıcı heyət 1992-ci ildə köçkün düşməzdən öncə Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasını da hazırlayıb Şuşada nümayiş etdirib. Tamaşaya quruluşu Əməkdar artist Yadigar Muradov verib. Quruluşçu rəssam Valeh Məmmədov, rejissor köməkçisi Əməkdar artist Azad Məmmədov olub.

***

Yuğ Dövlət Teatrının cari repertuarındakı ən uzunömürlü nümunə "Metamorfoza" tamaşasıdır. 2016-cı ildən nümayiş olunan tamaşa yazıçı Saida Haqverdiyevanın hekayələri əsasında rejissor Günay Səttarın quruluşunda hazırlanıb. Səhnə əsərində Oqtay Mehdiyev, Zümrüd Qasımova və Elgün Həmidov çıxış edirlər.

***

30 illiyini qeyd edən Dövlət Pantomima Teatrının ən çox oynanılan tamaşası isə özü ilə yaşıd olan "Pantomima buketi"dir. İfaçıları nəsillər keçdikcə dəyişən səhnə işinin yaradıcısı Xalq artisti Bəxtyar Xanızadədir. Tamaşanın quruluşçu rəssamı Əməkdar artist Qurban Məsimov, musiqi tərtibatçısı Əməkdar artist Elman Rəfiyevdir.

***

93 yaşlı Azərbaycan Dövlət Kukla Teatrının repertuarında da uzunömürlü tamaşalar az deyil. Zaman-zaman kuklaların istismar müddətini başa vurması səbəbindən repertuar yenilənsə də, "Cik-cik xanım" öz "qocaman"lıq sırasını heç kimə vermir. 2001-ci ildə Əli Səmədlinin eyniadlı nağılı əsasında hazırlanan tamaşaya mərhum kuklaçı, Əməkdar artist Ələkbər Hüseynov quruluş verib. Quruluşçu rəssam Sənubər Səmədova, bəstəkar Hikmət Mirməmmədlidir.

2010-cu ildən cari repertuara daxil edilən "O olmasın, bu olsun" marionet kukla tamaşası da uzunömürlü sayıla bilər. Ü.Hacıbəylinin eyniadlı operettasına kuklaçı rejissor Elşad Rəhimzadə quruluş verib. Quruluşçu rəssam Lətifə Quluzadə, kukla ustası Rusiyadan dəvət olunmuş Tatyana Melnikovadır. Onu da qeyd edək ki, tamaşada yeganə canlı planı – Məşədi İbad obrazını mərhum Xalq artisti Yaşar Nuri ifa edib.

***

Sumqayıt Dövlət Dram Teatrının cari repertuarında olan ən uzunömürlü tamaşa M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasıdır. Teatr 1969-cu il martın 14-də ilk dəfə pərdəsini Cənnət Səlimovanın quruluş müəllifi olduğu bu tamaşa ilə açıb. Tamaşanın quruluşçu rəssamı İsmayıl Axundov, bəstəkarı Emin Sabitoğlu olub. 1995-ci ildə isə teatrın baş rejissoru Xalq artisti Firudin Məhərrəmov əsərə yeni traktovka verib.

**Həmidə**

# Mədəniyyət tariximizdə ilklərə imza atan qadınlar

əvvəli səh. 1-də

Riçard Zommer Qeysərə təhsilini Moskvada davam etdirməyi məsləhət bilsə də, o dövrdə bir müsəlman qızının yad şəhərdə oxuması çətin idi. Ancaq Qeysər Kaşıyevanın şöhrəti gündən-günə artır, müxtəlif sərgilərdə iştirak edir. O, portret və mənzərə janrlarında "Azərbaycan ziyalısı", "Göl sahili", "Qoca keşikçi", "Gürcü qızı", "Ovçu" və s. əsərlər yaradıb. Eyni zamanda "Şərq qadını" jurnalına illüstrasiyalar çəkib.

Azərbaycanda, eləcə də müsəlman Şərqində ilk peşəkar qadın rəssam hesab olunan Qeysər Kaşıyeva 17 aprel 1972-ci ildə Bakıda vəfat edib. Rəssamın bir çox əl işləri Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır.

***



Kinorejissor **Qəmər Salamzadə**. O, 5 may 1908-ci ildə Naxçıvanda görkəmli satirik şair, publisist Əliqulu Qəmküsarın ailəsində anadan olub. 1912-ci ildə valideynləri Tiflis şəhərinə köçür. Atası 1919-cu ildə menşeviklər tərəfindən qətlə yetirilir. Qəmər əmisi, publisist, maarif xadimi Rzaqulu Nəcəfovun himayəsində qalır. Orta təhsilini başa vurduqdan sonra 1929-cu ildə Moskva Dövlət Kinematoqrafiya Texnikumuna daxil olur. Məşhur kinorejissor Aleksandr Dovjenkonun yanında təcrübə keçir. Təhsilini bitirib Bakıya dönən Qəmər Salamzadə "Natəvan" və "Nizami" qısametrajlı filmlərinin ssenarisini yazır. 1944-cü ildə kinostudiyada həkim Hüsniyyə Diyarova haqqında lentə alınan "Şəfa nəğməsi" sənədli filminin ssenari müəllifi və rejissoru olur.

Onun sənət bioqrafiyasında "Qızıl kol" (rejissor köməkçisi), "Əlsiz adamlar", "Səbuhi", "Bir ailə" filmləri (hər üçündə rejissor assistenti) də var. Q.Salamzadə 20 aprel 1994-cü ildə vəfat edib.

***



Kinomexanik **Nailə Bədəlova**. 8 mart 1913-cü il tarixdə Nuxa (indiki Şəki) şəhərində anadan olan Nailə Bədəlova 1939-cu ildə Bakıda kinomexaniklər kursuna yazılıb. Həmin il "Bakkommuna" kinoteatrında təcrübəçi kimi əmək fəaliyyətinə başlayıb. 1940-cı ildən kinomexanik vəzifəsinə keçirilib. 1941–1945-ci illərdə, müharibə dövründə Şəki şəhərindəki "Yeni yol" kinoteatrında, Zəyzid, Kiş, Göynük kəndlərindəki kinoqurğularda filmlər nümayiş etdirib. 1945–1946-cı illərdə Bakı kinostudiyasında, 1948-ci ildə Bakı kinoteatrında, 1949–1972-ci illərdə isə Nizami kinoteatrında kinomexanik işləyib.

1946-cı ildə "Qafqazın müdafiəsinə görə", 1967-ci ildə "Əməkdə fərqlənməyə görə" medalları ilə, müxtəlif illərdə fəxri fərmanlarla təltif olunub. 27 may 2000-ci ildə Bakıda vəfat edib.

***

Bəstəkar **Ağabacı Rzayeva**. İlk qadın bəstəkarlarımızdan olan Ağabacı İsmayıl qızı Rzayeva 15 dekabr 1912-ci ildə Bakıda dünyaya göz açıb. Dövrünün məşhur tarzəni Mirzə Fərəcin nəvəsidir. Ağabacı erkən çağlardan musiqiyə maraq göstərir. Orta məktəbi bitirdikdən sonra Pedaqoji Texnikuma qəbul olunur. Təhsilini 1929-cu ildə başa vurub təyinatla Maştağa, Kürdəxanı və Saray kəndlərində müəllimlik edir.

Həmin dövrdə Üzeyir Hacıbəyli konservatoriyada Xalq musiqisi şöbəsi açmışdı və ilk bəstələrini ərsəyə gətirən Ağabacının da bu sahədə parlamaq imkanı yaranmışdı. Ağabacı Rzayevanın "Gənc vətənpərvərlər" marşını dinləyən Üzeyir bəy gənc müəllifə konservatoriyanın Bəstəkarlıq şöbəsinə daxil olmağı məsləhət görür. O, əvvəlcə Üzeyir bəydən, daha sonra Qara Qarayevdən bəstəkarlıq dərsləri alır. Əsasən mahnı və romanslara diqqət ayırır. Onun yazdığı uşaq mahnıları "Kukla", "Qaranquş", "Balaca kapitan", "Bakı metrosu", "Qərənfiləm mən", "Ağ göyərçinim" və s. mahnıları geniş şöhrət qazanır. Eləcə də "Evimizə gəlin gəlir", "Toy



mahnısı", "Telli sazım", "Şuşanın yolları" və başqaları musiqisevərlər tərəfindən maraqla qarşılanır. O, eyni zamanda bir çox mahnı və romansların, "Höcət eləmə" (İsmayıl Quliyevlə birgə) musiqili komediyasının, xalq çalğı alətləri orkestri, simli kvartet üçün pyes və simfonik əsərlərin, İ.Nəsiminin sözlərinə bəstələdiyi 7 romansın, "Çiçəklənən yurdum", "Azərbaycan", "Bəxtiyar ellər", "Dilbərim" adlı xor əsərlərinin müəllifidir.

1960-cı ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülən Ağabacı Rzayeva 5 iyul 1975-ci ildə vəfat edib, II Fəxri xiyabanda dəfn olunub.

***

Teatr rejissoru **Ulduz Rəfili**. 15 dekabr 1922-ci ildə Gəncədə anadan olub. Məşhur Rəfibəylilər nəslindəndir. İndiki Mədəniyyət və İncəsənət Universitetinin Rejissorluq fakültəsində təhsil alıb. 1952-ci ildə Azərbaycanın ilk qadın teatr rejissoru kimi Gənc Tamaşaçılar Teatrının rus bölməsində işə başlayan U.Rəfili 1972–1975-ci illərdə teatrın baş rejissoru olur. Burada Azərbaycan və rus bölmələrində tamaşalar hazırlayır. O bu səhnədə V.Hüqonun "Qavroş", "Ümid nəğməsi", "Hünər", S.Qədirzadənin "Şirinbala bal yığır", "Xoruz", X.Əlibəylinin "Dovşanın ad günü", K.Qoldoninin "İki ağanın bir nökəri", M.Təhmasibin "Rübailər aləmində", Anarın "Ötən ilin son gecəsi", S.S.Axundovun "Qaraca qız" və s. əsərlərə maraqlı quruluşlar verib.



1975-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyət göstərən rejissor burada S.Raxmaninovun "Aleko", P.Çaykovskinin "İolanta", F.Əmirovun "Sevil", Motsartın "Fiqaronun toyu" və s. əsərləri uğurla səhnələşdirib.

Əməkdar incəsənət xadimi U.Rəfili 8 yanvar 2006-cı ildə Bakıda vəfat edib.

Mədəniyyət sahəsində uğurlara, o cümlədən rəngarəng sənət aləmində bu və digər ilklərə imza atan xanımlarımız, sözsüz ki, adları sadalananlardan qat-qat çoxdur və gələcəkdə də olacaq.

**Savalan Fərəcov**

# Kinorejissorun arxivində dövlət başçılarından məktublar da var

Bir neçə ildir Dövlət Film Fondunda görkəmli kino xadimlərinin şəxsi arxiv fondu yaradılır. Məqsəd kino salnaməmizin sanballı səhifələrini qoruyub saxlanılmasıdır. İndiyədək fonda Leyla Bədirbəyli, Həsən Seyidbəyli, Şahmar Ələkbərov, Gündüz Abbasov, Lətif Səfərov, Məlik Dadaşov və başqa kino xadimlərinin arxiv sənədləri daxil olub.

Bu günlərdə Xalq artisti, görkəmli kinorejissor Tofiq Tağızadənin (1919–1998) şəxsi arxiv materialları da bu zənginliyə qatılıb. Rejissorun 105 illiyi münasibətilə yaradılan şəxsi arxiv fondu barədə Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyevdən məlumat aldıq.





"Neçə müddət idi Tofiq Tağızadənin də şəxsi arxivini yaratmaq haqqında düşünürdük. Bu illər ərzində müəyyən materiallar toplamışdıq. Onların bəziləri kinematoqrafçılar, bəziləri sənət dostları, bir qismi də mənim şəxsi arxivimdən idi. Sonra əməkdaşımız Babək Abbaszadə Tofiq müəllimin kürəkəni Əməkdar artist Firdovsi Atakişiyevlə əlaqə saxlayıb sənətkarın ailəsində qorunan sənədləri fond üçün istədi. Firdovsi müəllim materialları məmnunluqla bizə təhvil verdi. Düzdür, arxiv o qədər də geniş deyil. Əldə nə olubsa, onu da təqdim edib. Bura fəxri fərman və fotolar daxildir", – deyə Cəmil Quliyev bildirdi.

Direktorun sözlərinə görə, sənədlərin içərisində ən qiymətli olanlar Ulu öndər Heydər Əliyevin və Türkiyənin keçmiş prezidenti Süleyman Dəmirəlin rejissora təbrik məktublarıdır.

Digər kino xadimlərimizin "Azərbaycanfim" kinostudiyasında saxlanılan əlyazma və rejissor ssenariləri barədə danışan C.Quliyev deyir ki, həmin sənədlər vaxtilə Milli Arxiv İdarəsinə təhvil verilib: "Vaxtilə kinostudiyanın rəhbərliyi nəyi rəva bilibsə, onu da Dövlət Film Fonduna təhvil verib. Hazırda bizə daxil olan şəxsi arxiv fondları ayrı-ayrı şəxslərdən əldə olunub. Fondda yalnız sənədlər saxlanılır, burada filmlərin geyim rekvizitləri və s. əşyaların saxlanılmasına texniki şərait yoxdur və bina bunun üçün nəzərdə tutulmayıb".

Qeyd edək ki, kinorejissor T.Tağızadə 1955-ci ildə özünün ilk filmini – "Görüş" kinokomediyasını çəkib. 1958-ci ildə Azərbaycan kino tarixində əhəmiyyətli yer tutan "Uzaq sahillərdə" filminə quruluş verir. Film Kiyevdə keçirilən Ümumittifaq kinofestivalında diploma layiq görülür. Bundan sonra T.Tağızadə "Əsl dost" (1959), "Arşın mal alan" (1965), "Yeddi oğul istərəm" (1970), "Dədə Qorqud" (1975), "Babamızın babasının babası" (1981), "Bağ mövsümü" (1985), "O dünyadan salam" (1992) və s. filmlərə quruluş verib.

**Lalə Azəri**

№19 (2084)
8 mart 2024
www.medeniyyet.az



# Səhnə arxasında son görüş

## "Teatr gərək öz yüksək simasını həmişə saxlasın"

Mədəniyyətimizin böyük hamisi Heydər Əliyev teatr sənətinə xüsusi diqqət ayırırdı. Dövlət rəhbərliyində olduğu bütün dövrlərdə, özəlliklə də müstəqil Azərbaycana prezidentliyi zamanı gərgin iş qrafikindən, bir gündə bəzən bir neçə rəsmi görüş və toplantılardan vaxt tapdıqca teatra da gedir, yeni tamaşalara baxırdı. Hər tamaşadan sonra da adəti üzrə səhnə arxasına keçərək yaradıcı heyətlə səmimi atmosferdə görüşər, fikirlərini bölüşər, sənət adamlarının qayğıları ilə maraqlanar, onların da fikirlərini dinləyərdi.

2002-ci ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Vilyam Şekspirin "Hamlet" faciəsi yeni quruluşda səhnəyə qoyulmuşdu. Tamaşaya görkəmli rejissor mərhum Azər Paşa Nemətov quruluş vermişdi. Ulu öndər Heydər Əliyev həmin ilin 7 dekabrında teatra gələrək tamaşaya baxdı, sonra yaradıcı heyətlə söhbət etdi. Budəfəki söhbət əvvəlki belə səhnəarxası görüşlərdən, bəlkə də, daha çox çəkmişdi. Azərbaycan teatrı, ümumilikdə teatr sənəti, repertuar seçimi, bədii tərtibat, ayrı-ayrı aktyorların oyunu – söhbətin mövzu əhatəsi də geniş idi. Bu, Heydər Əliyevin teatr xadimləri ilə son görüşü idi...

Azərbaycan peşəkar milli teatrının yaranmasının 151-ci ildönümü, 10 mart – Milli Teatr Günü ərəfəsində həmin söhbətin mətnini oxuculara təqdim edirik.

***

*7 dekabr 2002-ci il, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı.*

**Heydər Əliyev:** Sizinlə yenidən görüşümdən çox məmnunam. Xeyli vaxt idi ki, teatra gəlmək ya mümkün deyildi, yaxud da ki, siz çağırmırdınız. Hər halda, mən sizin teatrı həmişə sevmişəm, tamaşalara gəlmişəm.

"Hamlet" tamaşasının göstəriləcəyini eşitdim, maraqlandım. Dedilər ki, tamaşa çox yaxşı hazırlanıbdır. Yaxşı quruluşu var, yaxşı ifa edirlər. Təbiidir ki, bu, Azərbaycanın teatr həyatında, mədəni həyatında böyük hadisədir. Çünki klassiklərin əsərləri həmişə yaşayır. Daim yaşayan əsərlər var. Əsərlər var ki, müəyyən dövrə həsr olunub, ancaq o dövrdə yaşayır, yaşaya bilir. Klassiklərin əsərləri isə həmişə yaşayır. Xüsusilə Şekspir yaradıcılığı, onun əsərləri...

İndi Azərbaycan teatrının 130 illik yubileyinə hazırlaşırıq. Azərbaycan teatrı vaxtilə, hələ çox onilliklər bundan öncə Şekspirin əsərlərinə müraciət edibdir. "Hamlet" Azərbaycan səhnəsində otuzuncu illərdə çox uğurla göstərilibdir. Mənə belə gəlir ki, Abbas Mirzə Şərifzadə Hamlet rolunu ilk oynayan bizim görkəmli aktyorlarımızdan biri olubdur. Deyirlər ki, sonralar da bu əsər dəfələrlə göstərilibdir. Elçin Əfəndiyev (Baş nazirin müavini – red.) buradadır, yoxsa yox? O, məlumat verdi ki, "Hamlet" Azərbaycan səhnəsində dördüncü dəfədir ki, qoyulur.

**Elçin Əfəndiyev:** Bəli, dördüncü dəfədir...

**Heydər Əliyev:** Təbiidir, ola bilər ki, bu azdır. "Hamlet" əsəri bizim səhnəmizdə çox göstərilsəydi, teatrımız üçün daha yaxşı olardı. Ancaq bunlar tarixdir, hər şey arxada qalıb, olanlar barədə heç nə demək olmaz. Əsas odur ki, indi siz Şekspir yaradıcılığına yenidən müraciət etmisiniz. Onun ən görkəmli əsərlərindən birini – "Hamlet" faciəsini səhnəyə qoymusunuz.

Otuzuncu illərdə "Hamlet" bizim sevimli pyeslərimizdən biri idi. Burada bizim nəsildən olan adamlar var, yəqin salonda da beləleri vardı. Mən Hamleti Abbas Mirzə Şərifzadənin ifasında görmüşəm. Sonralar da "Hamlet" əsəri şəxsən məni həmişə maraqlandırıbdır. Bu pyesi Moskvada tamaşaya qoyublar, mən onu görmüşəm. Nəhayət, film vardı, məşhur aktyor Smoktunovski Hamlet rolunu çox gözəl ifa edirdi.

Biz bunların hamısını müəyyən qədər yada salarkən deyə bilərik ki, dünyada, ola bilər, yüzə qədər quruluşda "Hamlet" tamaşası olsun. Hər rejissor, hər aktyor onu özünün bildiyi kimi göstərir. Amma bunun əsası Şekspirin yaradıcılığıdır, onun fəlsəfəsidir. Bu, böyük bir fəlsəfədir. Şekspir həmişə ona görə yaşayır ki, onun hər bir əsəri özündə fəlsəfi fikirlər daşıyır.

Ona görə də mən çox məmnunam ki, siz bu əsəri səhnəyə qoymusunuz. Əgər siz gələcəkdə də belə əsərləri unutmasanız, yaxşı olar. Çünki hansısa günə aid olan əsərlər gəldi-gedər əsərlərdir. Mən demirəm ki, siz onlardan imtina edəsiniz. Hər günün tələbini də ödəmək lazımdır. Ancaq teatr teatrdır. Bilirsiniz, teatr gərək öz yüksək simasını həmişə saxlasın.

Biz Azərbaycan teatrı ilə fəxr edirik. Mən bunu dəfələrlə demişəm. Siz bilirsiniz ki, Azərbaycan teatrının 100 illik yubileyində mən Respublika sarayında məruzə ilə çıxış etmişəm. Sonra mənə dedilər ki, "Sən respublikanın rəhbərisən, teatrşünas deyilsən, nə üçün məruzə edirsən?". Dedim ki, məruzə etdim və hər halda, teatrşünaslardan pis etmədim. Bu, qəzetlərdə qalıbdır, arxivlərdən tapmaq olar. Mən bunu niyə deyirəm? Çünki bizim teatr, həqiqətən, klassik teatrdır. Əgər klassik teatr olmasaydı, bu qədər yaşaya bilməzdi. Teatrı belə yaşatmaq lazımdır.

İndi mən görürəm ki, siz bu addımları atırsınız. Mən bunu bəyənirəm. Bu barədə sizə yardımçı olmağa hazıram ki, bizim teatrımızın səviyyəsini getdikcə yüksəldəsiniz.

Bugünkü tamaşa haqqında indi nə deyə bilərəm? Quruluşçu rejissora (Azər Paşa Nemətov – red.) təşəkkür edirəm, əsərə çox yaxşı quruluş veribdir. Çox gözəl musiqi müşayiəti var. Siyavuş Kərimi çox qeyri-adi, müasir bəstəkardır.

Keçmişdə "Hamlet" tamaşasında dekorasiyalar vardı. Özü də zəngin dekorasiyalar, sarayların dekorasiyaları vardı, onları bilirsinizmi? Siz gəncsiniz, yəqin görməmisiniz. Amma mən bunu görmüşəm.

Ümumiyyətlə, bizim həmin teatrımızda – keçmişdə o, Musiqili Komediya Teatrının yerində idi – böyük-böyük dekorasiyalar vardı. Ona görə də – bayaq dedilər ki, tamaşa 4 saat davam edəcək – o vaxt 6 saat çəkirdi. 4-5 pərdə... Bir pərdə oldu, fasilə, gərək dekorasiyalar dəyişiləydi. Amma indi burada dəyişiklik var, dekorasiya yoxdur. Dekorasiyasız da pis deyil, bəlkə daha da yaxşıdır. Ona görə də mən bu barədə rəssamların (Elçin Məmmədov, Nazim Bəykişiyev – red.) işini qeyd etmək istəyirəm. Çox yaxşı bədii tərtibat veriblər. Bunlar, deməli, tamaşanın təşkilatçılarıdır.

O ki qaldı tamaşanın ifaçılarına, hamınız çox yaxşı oynadınız. Özü də bu tamaşada məni sevindirən odur ki, – burada siz azsınız – səhnədə çoxlu adamlar vardı.

Çox gözəldir ki, belə kütləvi səhnələri olan bir tamaşa yaratmısınız. Ancaq bu tamaşanın bütün ağırlığı, təbiidir ki, Hamlet rolunun ifaçısının üzərinə düşübdür.

Fuad Poladovu mən 1970-ci illərdən yaxşı tanıyıram. Elə bu səhnədə çox gözəl rollar ifa edirdi. Çox məmnunam ki, yenə də bu səhnədədir və deyə bilərəm ki, bu rolu çox məharətlə oynadı.

Fuad, mən səni təbrik edirəm. Çünki bu dörd saatın, demək olar ki, xeyli hissəsini Hamletin monoloqları, danışıqları təşkil edir. Şekspir əsəri belə yaradıb, başqa cür etmək olmaz. Ancaq kim bu rolu ifa etmək istəyirsə, bu ağırlıq onun üzərinə düşür. Kim bu ağırlığı necə daşıyırsa, o, başqa məsələdir, bu fərqlidir.

Mən hesab edirəm ki, bu gün Fuad Poladov Azərbaycan teatrında Hamlet rolunu çox məharətlə ifa etdi. Yenə də deyirəm, mən səni təbrik edirəm. Güman edirəm ki, gələcəkdə də klassik əsərlərdə belə rolları ifa etməkdə davam edəcəksən.

Bu çox faydalıdır, cəmiyyət üçün faydalıdır. Hər bir rolu ifa etməyin çətinliyi var. Amma belə rolu ifa etmək, təbiidir ki, aktyordan böyük istedad, məharət, bilik tələb edir. Çünki ifa etdiyin surətin daxili aləmini dərk edə bilməsən, əsərin fəlsəfəsini duya bilməsən, əlbəttə ki, bu rolu oynamaq mümkün deyildir. Bunların hamısını biz bu gün gördük.

Bu pyes belədir ki, burada bir rol hamısından fərqlənir. Ona görə də başqa rolu Fuadın ifası ilə müqayisə etmək mümkün deyildir. Ancaq mən çox məmnunam ki, məsələn, Kraliça rolunun ifaçısı (Sənubər İsgəndərli – red.) da çox gözəl çıxış edirdi. Bu rolun ifaçısını mən əvvəllər görməmişdim, bu qızı birinci dəfədir ki, görürəm. Xülasə, çox yaxşı çıxış edirdi. Ofelya rolunun ifaçısı (Məsmə Aslanqızı – red.) da çox gözəl çıxış edirdi. Bu qadın rollarını xüsusi qeyd edirəm. Bilirsiniz, bu rollar bizim Azərbaycan həyatının xüsusiyyətinə uyğun rollar deyildir. Çünki bu rolların hamısı Danimarkanın, İngiltərənin o dövrdəki həyatı ilə bağlıdır. Bunları məhz o cür göstərmək, yəni həmin surətləri "azərbaycanlaşdırmamaq" əsas şərtdir, məsələ bundadır. Əgər kimsə Şekspiri istəsə azərbaycanlaşdırsın, bu, əlbəttə ki, mənfi nəticə verəcəkdir.

Dünən maestro Niyazinin 90 illik yubileyi idi. Mən orada çıxış edib xatirələrimi danışarkən dedim ki, Niyazi bütün başqa istedadı ilə yanaşı, bizim Azərbaycan bölgələrinin ləhcələrini çox gözəl yamsılayırdı. O çox gözəl aktyor idi. Məsələn, Şəki ləhcəsini, yaxud da ki, Gəncə, Qarabağ ləhcəsini... Mənim yadımdadır – biz ailəvi dost olmuşduq – bir dəfə o danışırdı ki, Şəki teatrında tamaşaya qoyulmuş "Otello"da Şəki ləhcəsi ilə deyilirdi: "...Mənim ciyimin yaylığı necə oldu?" Rolu azərbaycanlaşdırmaq olmaz. Ona görə də Fuadın da, bu qızların da ifasında mən məhz o ölkənin, həmin xalqın xüsusiyyətlərini hiss etdim. Bu da bunların əsərə çox ciddi yanaşmasının nəticəsidir.

Sonra əsərdə, əlbəttə ki, Kral surəti var. Rafael, çoxdandır ki, səni səhnədə görmürdüm, sən harada idin, yox idin. Yayda səni bir dəfə çimərlikdə görmüşəm. Bazar günü mən çimərliyə getmişdim ki, görüm insanlar necə istirahət edirlər. Qəflətən getdim, heç kəs bilmirdi. Gəlmişdim çimərliyə, Buzovna çimərliyi idi, yoxsa?...

**Rafael Dadaşov:** Buzovna yox, Zuğulba çimərliyi idi.

**Heydər Əliyev:** Hə, Buzovna ilə Zuğulba arasındakı çimərlik idi. Oturdum, bir az çay içdim, su içdim, bir az söhbət etdim. Bir də gördüm ki, Rafael anası ilə gəlir. Rafaelin anası Sofiya Azərbaycanın Xalq artistidir. Onun anası da artist idi. Naxçıvanda 1930-cu illərdə teatr çox güclü idi. Güclü artistlər vardı. Orada da baş rolları iki-üç aktrisa oynayırdı. Onların da biri Xədicə xanım Qazıyeva idi. Xədicə Qazıyeva da orada aktyorlardan hansınasa ərə getdi. Ondan da Rafaelin anası Sofiya doğuldu. Sofiyanı uşaqlıqdan tanıyıram. İndi görürsünüzmü, mən sizə hansı tarixi söyləyirəm.

Xədicə xanımın gözəl çıxışları olurdu. Orada yaxşı aktyorlar vardı, məsələn, İsa Musayev, ən gözəl aktyor Miribrahim Həmzəyev idi.

**Rafael Dadaşov:** Bəli, Miri müəllim...

**Heydər Əliyev:** Miribrahim Həmzəyev. Zəroş xanım – Miribrahim Həmzəyevin xanımını oynayırdı. Bəli, Rafaelin anası və nənəsi də teatr sənəti ilə bağlıdırlar. Səni orada gördüm, amma teatrda yox idin. Sonra eşitdim ki, "Hamlet"də oynayırsan, dedim çox yaxşı ki, buraya gəlmisən. Amma çox belə cüssəlisən... Yəqin ki, idmanla məşğul olmusan. Hə? Daş qaldırmısan, ya nədirsə...

**Rafael Dadaşov:** Yəqin ki, bu, ifa etdiyim rola uyğun olar.

**Heydər Əliyev:** Bəli, Kral da... Doğrudan da, Şekspir bu faciəni necə yaradıbsa – mən bu əsəri birinci dəfə deyil ki, görürəm – hər dəfə adamda çox böyük təəssürat doğurur. Mənə dedilər ki, tamaşaya iki saat baxacaqsan. İki saat elə keçdi ki, heç xəbərim olmadı. İkinci pərdə qısa oldu. Mən burada nə qədər oldumsa, yorulduğumu hiss etmədim. Biz buraya yorulmağa gəlmirik. Əksinə, istirahət etməyə gəlirik. Mən tam istirahət etmişəm. Çünki bu çox güclü əsərdir. Əsərə ki, alışırsan, onda, həqiqətən, istirahət edirsən. Səni də təbrik edirəm, bu teatra gəlmisən. Güman edirəm ki, teatrdan ayrılmaq lazım deyildir.

Bu gün görürəm, qarşımda durublar, Səyavuş, Yaşar... Siz həmişə çox yaxşı oynayırsınız. Elə aktyorlarsınız ki, sizin haqqınızda nə qədər desək, yenə söz qurtarmayacaqdır. Amma bu dəfə xüsusi rollar oynayırsınız. Məsələn, Səyavuş elə həmişə adamı güldürür. Amma bu dəfə elə bir rol (Poloni – red.) oynayırdın ki, onun da öz xüsusiyyəti var.

**Səyavuş Aslan:** Məni zorla oynatdılar...

**Heydər Əliyev:** Yox əşşi... Amma yaxşı oynayırdın. Qəbirqazan surətini də Yaşar yaxşı oynayırdı. Çox yaxşı oynayırdınız. Daha kimi deyim? Hamınız yaxşı oynayırdınız. Elədir, yoxsa yox?

Gənclər də, təbiidir ki, inkişaf edirlər. Mən bunu görürəm. Bu gün tamaşada mən çoxlu gənc ifaçı gördüm, gənclər gördüm. Demək, bu teatra gənc aktyorlar gəlib. Onlar çoxdurlar.

**Əliabbas Qədirov** (teatrın bədii rəhbəri və direktoru Xalq artisti): Bəli. Teatra gənclər cəlb olunur.

**Heydər Əliyev:** Teatra gərək gənclər gəlsin. Gənclər gəlsin ki, onlar Səyavuşun, Yaşarın, o birilərin işlərini davam etdirsinlər. Fuad özü hələ cavandır. Doğrudan, mən səni çoxdandır ki, görmürəm, dəyişilməmisən. Özünü yaxşı saxlamısan. Çoxdandır, gör nə vaxt idi, mən səni 1970-ci illərdə səhnədə görmüşəm. 20 ildir, 20 ildən də çoxdur... Amma bu 20 ildə heç dəyişilməmisən. Ovaxtkı kimisən.

**Səyavuş Aslan:** Heydər müəllim, Rus Dram Teatrında işləyir, buraya dəvətlə gəlibdir.

**Heydər Əliyev:** Burada işləmir?

**Səyavuş Aslan:** Yox, burada işləmir. Amma arzumuzdur ki, bizimlə işləsin, ona yalvarırıq, deyirik, indi nə vaxt qayıdacağını bilmirik.

**Heydər Əliyev:** Artistlərin bu işinə qarışmaq olmaz.

**Əliabbas Qədirov:** Mən onu dəvət etmişəm.

**Heydər Əliyev:** Mən bu məxluqu yaxşı tanıyıram. Çünki dəfələrlə demişəm, mən özüm teatr həvəskarı olmuşam, lap gənc vaxtımda, Naxçıvanda dram dərnəyində mən də çıxışlar etmişəm. Miribrahim Həmzəyev bizim dram dərnəyinin rəhbəri idi. Sonra burada, Bakıda, Azərbaycan Sənaye İnstitutunda oxuyanda da bizim dram dərnəyimiz vardı. Mən orada da çıxış etmişəm. Hətta bir dəfə "Hamlet"dən bir pərdə hazırlamışdılar, mən də özüm bacardığım kimi çıxış etdim. Yəni bilirəm ki, bu artistlər xüsusi məxluqdur. Onların işinə qarışmaq olmaz. Onları gərək başlı-başına buraxasan. Nə edirlərsə, qoy etsinlər. Bu teatrdan çıxıb başqa teatra gedirlər. Bu sizin öz işinizdir. Keçmişdə bu teatrdan da gedən olubdur. Rəhmətlik Mehdi Məmmədov neçə dəfə buradan getmiş və neçə dəfə də buraya qayıtmışdı. Yadınızda deyilmi? O da Rus Dram Teatrına getmişdi. Elədirmi?

**Əliabbas Qədirov:** Bəli, opera teatrına da getmişdi.

**Heydər Əliyev:** Opera teatrına, Rus Dram Teatrına da getdi. Sonra mən onu 1970-ci illərdə buraya gətirdim, dedim gəl bu teatra. Gəldi, burada baş rejissor oldu. Özü də oynayırdı, yadımdadır, Xəyyamı çox oynadı.

**Əliabbas Qədirov:** "Meşşanlar"da, "Canlı meyit"də...

**Heydər Əliyev:** Bəli, "Canlı meyit"də... "Xəyyam" mənim xatirimdə çox yaxşı qalıbdır, "Xəyyam" pyesini qoydu, elədirmi?

**Əliabbas Qədirov:** Elədir.

**Elçin Əfəndiyev:** "İnsan"da da oynadı.

**Əliabbas Qədirov:** 1969-cu ildə...

**Heydər Əliyev:** Mən xahiş etdim, o, Səməd Vurğunun "İnsan" pyesini tamaşaya hazırladı.

İndi kim-kimə yalvarır, bu sizin öz işinizdir, mənim işim deyildir. Əgər Fuad Rus Dram Teatrındadırsa, bir gün gedəcəyəm, orada görəcəyəm. Bəlkə Səyavuş, sən də Rus Dram Teatrına gəldin. Sənin özün gah orada – Musiqili Komediya Teatrındasan, gah buradasan. Belədir də. Bu tamamilə təbii haldır. Bunu heç kəs heç kimə irad tutmasın. Hesab edirəm ki, bu, təbii haldır.

Bir sözlə, hamınız bu gün bu ağır tamaşanı göstərdiniz. Mən çox məmnunam ki, sizin bu teatrda da öz içərinizdən çıxan direktorunuz var. Sən həm teatrın bədii rəhbərisən, həm də direktorusan?

**Əliabbas Qədirov:** Bəli.

**Heydər Əliyev:** Daha bunu tərifləməyə ehtiyac yoxdur. Bilirsiniz də, bu da böyük rollar oynayıbdır, indi də teatra başçılıq edir və yaxşı başçılıq edir.

Son dəfə mən sizin maaşlarınızı da artırdım, bilirsiniz də.

**Səyavuş Aslan:** Çox sağ olun. Sizin sağlığınız bizim teatr üçün hər şeydir. 22 nəfərə də Prezident mükafatı təyin etmisiniz.

**Heydər Əliyev:** Özü də hərəyə 2 milyon manat (2006-cı il denominasiyasından sonra 400 AZN – red.)... Hə?

**Əliabbas Qədirov:** Bəli, 22 nəfərə iki milyon, milyon yarım, ən azı bir milyon manat Prezident mükafatı vermisiniz.

**Heydər Əliyev:** İndi Azərbaycanda heç kim dövlətdən bu qədər pul almır. Başqa yerdən alanlar var.

**Səyavuş Aslan:** Heydər müəllim, 3-4 nəfər də yaxşı gənc aktyorlarımız var, işləyirlər. Onların fəxri adları yoxdur.

**Heydər Əliyev:** Sən bunu dedin, mən Fatma xanıma (Prezident Administrasiyasının şöbə müdiri Fatma Abdullazadə – red.) tapşıraram, nə dərdiniz varsa, deyin.

**Əliabbas Qədirov:** Cənab Prezident, çox sağ olun. Teatrımıza Sizin gəlişiniz bizi ruhlandırır. Sizin buraya gəlişiniz bizim üçün həmişə bayramdır. Hamı bilir ki, Sizin gəlişiniz burada necə təntənə ilə qarşılanır və bilirik ki, Siz bizə çox böyük qayğılar göstərmisiniz. Mən 1969-cu ildən bu teatrda işləyirəm. O vaxtdan bu günə qədər bizim teatra Sizin qayğınız həmişə olub. Biz Sizə çox təşəkkürümüzü bildiririk. Biz bir neçə ay Sizin buraya gəlişinizin təəssüratı ilə yaşayacağıq. Bilirik ki, Siz həmişə teatrın qayğısını çəkmisiniz. Bayaq da söhbətimiz oldu, düzdür, Səyavuş da deyir, Siz də dediniz ki, nə lazımdırsa, yəni gələcəkdə aktyorlarımıza fəxri ad verilməsi məsələləri, teatrımıza milli teatr statusu verilməsi...

**Heydər Əliyev:** Fatma xanım, bunların hamısını yaz, ver. Mənim incəsənətə, ələlxüsus teatra münasibətimi sübut etmək lazım deyil. Ona görə də nə lazımdırsa etmişəm və edəcəyəm.

**Səyavuş Aslan:** Özünüz də gördünüz, yaxşı gənclərimiz var.

**Heydər Əliyev:** Görürəm, siz veteranlar da yaxşısınız.

**Səyavuş Aslan:** Gəncləri də bizim siyahıya salsanız, yaxşı olardı.

**Heydər Əliyev:** Gəncləri də siyahıya salarıq. Sən narahat olma. Səyavuş, yəqin sənin heç ağlına gəlməzdi ki, sənə birdən 2 milyon manat mükafat təyin edəcəyəm, hə?

**Səyavuş Aslan:** Heç indi də ağlıma gəlmir. İndi də çox sevinirəm. Qəflətən oldu.

**Heydər Əliyev:** İndi bir də görəcəksən ki, nə isə etdim, sənin heç ağlına gəlməz ki, bunu etmişəm. Bir sözlə, çox sağ olun. Mən çox məmnunam, sizə yeni-yeni uğurlar arzulayıram.

Pressfakt

# İllər öncə qəzetlər nədən yazırdı?

## Milli Kitabxananın dövri mətbuat arxivindən (9)

Mətbuat xronikasından budəfəki seçmələrdə iki qəzetə – 43 il öncəki "Kommunist" qəzetinə və 30 il əvvəlki "Mədəniyyət" qəzetinə nəzər saldıq. Tədbirlər, yubileylər, xatirə axşamları... Bunlar hər zaman olub. Bir də mədəniyyətin problemləri. O vaxtlar da vardı, indi də az deyil... Məsələyə ziyalı baxışına o vaxt da ehtiyac vardı, indi də var...

Seçmələrdə qəzetlərin orfoqrafiyası saxlanılıb...

***

### Yazıçının yubileyi

Görkəmli Azərbaycan ədəbiyyatçısı İbrahimbəy Musabəyovun anadan olmasının 100 illiyi münasibətilə Aktyor evində yubiley yığıncağı keçirilmişdir. Respublika Yazıçılar İttifaqı idarə heyətinin katibi Hüseyn Abbaszadə yığıncağı açmış, Azərbaycan mədəniyyətinin, o cümlədən kinematoqrafiyamızın inkişafında İ.Musabəyovun xidmətlərindən danışmışdır. Respublikada kinematoqrafın yaranması tarixi onun eyniadlı əsəri əsasında 1916-cı ildə çəkilmiş "Neft və milyonlar səltənətində" bədii filmi ilə bağlıdır.

Filologiya elmləri doktoru Bəkir Nəbiyev İ.Musabəyovun həyatı və yaradıcılıq fəaliyyəti haqqında məruzə etmişdir.

Yığıncaqda ədəbiyyatçılar və yubilyarın yaradıcılığının tədqiqatçıları, habelə onun qızı – respublikanın əməkdar müəllimi Zemfira Məmmədova-Musabəyova çıxış etmişlər.

Axırda yığıncağın iştirakçılarına İ.Musabəyovun "Neft və milyonlar səltənətində" əsəri əsasında Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında yenidən ekranlaşdırılmış film göstərilmişdir.

*"Kommunist" qəzeti, 6 mart 1981-ci il*

***

### Mədəniyyətimizin inkişaf yollarını nədə görürsünüz?

**Məmməd Araz:**

– Birinci növbədə fədakarlıqda... Yəni biz hərəmiz ayrılıqda, yəni biz hamımız birlikdə bir az tamahımızdan kəsməsək, bir az sağlamlığımızdan kəsməsək, bir az bacarığımızdan kəsməsək, bir az yuxumuzdan kəsməsək və bütün bunların hamısını müəyyən müddət mədəniyyətimizin dirilməsinə həsr etməsək, çətin olacaq. Çətin olacaq xalqımıza, dərd-sərimizi, ümidimizi bir adamın boynuna yıxsaq. Hamımız bilirik, lakin çoxumuz bilmək istəmirik ki, biz kiçik vətən müharibəsi deyil, Böyük Vətən müharibəsi aparırıq. Əslində bu düşmən başqa düşməndən daha kəmfürsətdir. Gücü çatanda daha qəddardır, gücü çatmayanda min sifətə girəndir. Odur ki, biz hər şeydə fədakar, hər yerdə qənaətcil və israfçılıqdan uzaq olmalıyıq. Biz bir şeyi bilməliyik ki, bu düşmən, gücü çatsa Leninqraddan betər mühasirədə saxlayar bizi. Özü də 800 gün, 9 min gün! Bəlkə də bütün ömrü boyu saxlayar. İndi oturub həmin parlaq günü gözləməməliyik ki, – o gün öz-özünə gələcək, düymə basılacaq və hər şey öz yerində bərqərar olacaq. Belə gün heç vaxt olmayacaq. Bu gündən, sabahdan, indidən hərəmiz bir işin qulpundan yapışıb, bayram yır-yığışına başlayan kimi işə başlamalı, çox işi ictimai əsaslarla, öz hesabımıza, fədakarlığımız hesabına görməliyik.




### Xatirə gecəsi

A.M.Şərifzadə adına Aktyor evində tanınmış səhnə ustası, xalq artisti Mustafa Mərdanovun anadan olmasının 100 illiyi münasibəti ilə xatirə gecəsi keçirilib. Gecədə respublikanın xalq artistləri Leyla Bədirbəyli, Lütfi Məmmədbəyli, sənətşünaslıq doktoru, professor İnqilab Kərimov, əməkdar mədəniyyət işçisi Cahangir Aslanoğlu, qocaman rejissor Məcid Zeynalov çıxış edərək, M.Mərdanovla bağlı xatirələrini söyləmişlər. Sonra mərhum sənətkarın çəkildiyi "O olmasın, bu olsun" filmi nümayiş etdirilmişdir.

*"Mədəniyyət" qəzeti, 5 mart 1994-cü il*

"Yaz qatarı"... Onu hər görəndə bu mahnı düşür yadıma. Beləcə, illər ötsə də, qapqara gözləri, şux baxışları, məhrəm təbəssümü ilə uşaqlıq yaddaşımdan boylanan qadın dəyişmir ki, dəyişmir. Musiqidə, səhnədə, nəğmə qanadlarında keçən ömrün növbəti dayanacağında onunla yenidən görüşdük. Şou-biznes qalmaqallarından, efir-ekran reytinq hesablaşmalarından arınmış ovqat söhbəti elədik. İstədim klassik, xalq, estrada nəğmələrinin sədaları altında hamılıqla dünənə boylanaq. Sabahı daha yaxşı görmək üçün...
Həmsöhbətim sevilən nəğmələrin mahir ifaçısı, bu il 70 yaşını qeyd edən Əməkdar artist Firuzə İbadovadır.

# 70 yaşın "Yaz qatarı"nda görüş...

## Firuzə İbadova: "Özümdə ən çox sevdiyim cəhət başqalarının uğuruna sevinə bilməyimdir"



*– Yubileyiniz mübarək! Yaşın 70-ə çatmaq, daha doğrusu, bu yaş daha cazibədar görünür...*

– Qocalığa heç bu qədər qəşəng tərif verən olmamışdı (gülür). Mənə təsəlli verirsənsə, min şükür. Ötən hər ilə sevinirəm. Əlim-ayağım, səsim yerində, oxuyub-oynaya gəlib çatdım 70-ə. Cazibədar deyəndə, hələ təzə-təzə dil tapırıq. Onu əla qarşıladım, sonrasına baxarıq (gülür).

*– Hə, saytlarda gördüm, gözəl yubiley tədbiri keçirmisiniz.*

– Bəli, məni sevən dostlarımı, doğmalarımı bir yerə yığdım ki, oturub söhbətləşək, ötənləri yada salaq.

*– Yada salmaq demişkən, unudulmaq qorxunuz olurmu?*

– Olur, amma tez də o fikri qovuram. Üstəlik, Allahdandır, yoxsa bəndədən, bilmirəm, bu hissə qapılan kimi bir də görürəm qapı döyülür, ya da telefonum zəng çalır. Elə götürək ad günümdən az əvvəl edilən təbriki. Mədəniyyət nazirimiz cənab Adil Kərimli məni ad günüm münasibətilə təbrik etdi. Nazirliyin məsul şəxsləri evimizə gəldi, mənə nazirliyin təbrik məktubunu çatdırdı, ən sevdiyim hədiyyəni – böyük gül dəstəsini bağışladılar. Çox sağ olsunlar, biz sənət adamlarına bundan gözəl nə ərməğan ola bilər? Sözsüz ki, sevgi və diqqət. Sağ olsun dövlətimiz, qədirbilən xalqımız, biz ifaçıları heç vaxt sevgilərindən məhrum etməyib.

*– 70-dən ən böyük qazancınız?*

– Hə, bax burada mənim öz meyarlarım var və Allah da bilir ki, necə hiss edirəmsə, onu da deyirəm: mənim qazancım da bu xalqın, əziz tamaşaçılarımın sevgisidir. Güvən yerim də onlardır. Nə var-dövlətim, nə də dəbdəbəli ev-eşiyim var. Varım bir balam, nəvəm və məni heç vaxt utandırmayan, yarı yolda qoymayan səsimdi, sənətimdi. Daha nə olsun ki?

*– Səhnədən getmək barədə düşünürsünüzmü?*

– Elə bir fikrim yoxdur! Şükür, səsim, avazım yerindədir. Eh, hələ o qədər oxumaq istədiyim mahnılarım var ki. Ömrümün uzun illəri səhnədə, ölkənin ucqar bölgələrində keçib. Arzu edirdim ki, Qarabağımızda, Şuşamızda konsertlər verim. İnşallah, azad və abad Qarabağ elimizdə də konsertlərim olacaq. Sonra getmək barədə düşünərəm (gülür).

*– Ötənlərdə "35 ildən sonra" adlı solo konsertiniz oldu. Bu qədər uzun zaman niyə gözlədiniz?*

– Qastrollarım, dövlət tədbirlərində, məclislərdə çıxışlarım, efirlərim dayanmadı, fasiləsiz oxudum. Amma solo konsert üçün gözləmək də olardı. Düşünürəm ki, 35 il ərzində daha səmərəli işlər gördüm. Hər yerdə sevgi ilə musiqimizi təbliğ etmişəm. Konserti də verdim, tamaşaçılar maraqla gəldilər. Klassik mahnıları oxudum, özümü də, onları da o illərə aparmağa çalışdım.

*– Konsert verməməyin bir səbəbi də, bəlkə, dəyişən dinləyici zövqüdür?*

– Bəli, çox düz vurğuladınız. Son zamanlar Azərbaycan musiqisi sahəsində müəyyən bir pis ənənə formalaşdırılıb: bayağı, lazımsız, gündəlik, az qala birdəfəlik melodiyalar, bayağı sözlərdən ibarət zümzümələr çıxıb ortaya. Nəhəng sənətkarların yaratdığı sənət inciləri də arxivə atılıb sanki. Əvəzində də Bəxtiyar Vahabzadə demişkən, başı yox, ayağı tərpədən notları ortaya atıblar. Yəni dincələn ruh yox, ritmin ahəngində danqıltıdan yorulan ayaqlardır. Təəssüf ki, indi bu üslub, janr, manera at oynadır musiqi meydanında.

*– Yəni çağdaş tamaşaçı klassik estradanı duymur, dinləmir?*

– Bəli, əvvəlki kimi kütləvi deyil. Dinləyici zövqü də korlanıb.

*– Bu məsələdə hər bəstəkar və müğənni çiynini geri çəkir. Yəni heç kim öz ayranına turş demir.*

– Deməsin də. Amma vəziyyət göz önündədir. Mahnı janrımız görün hansı vəziyyətdən hara gəlib?

*– Yəqin olduğunuz məclislərdə sizdən trendə düşən, bayağı dediyiniz mahnıları da istəyirlər, çarəsiz oxuyursunuz, hə?*

– Yox, vallah, oxumuram. İsrar edən də olmur heç. Zatən mən meydana gələndə, səhnəyə çıxanda Azərbaycan klassik bəstəkarlarının, xalq mahnılarımızın elə nümunələrini seçirəm ki, onları dinləyən hər kəs şəksiz ovsunlanır. Görün, bizim hər ruh və ovqata xitab edən nə qədər gözəl, şən nəğmələrimiz var. Onlar qala-qala ağzımı ağrıdıb o mənasız söz yığınlarını oxumaram. Heç qulaq da asmıram. Öz zövqüm, düşüncəm var. Əslində, o yeni nəsli də qınaya bilmirəm. Zövqləri müəyyən tənəzzül dövründə formalaşdı. Yəqin bu da bir səbəbdir. Bu mənada, mən və yəqin bizim nəsil ifaçılar özlərini həm də ona görə xoşbəxt sayırlar ki, nəhəng sənətkarların yaşayıb-yaratdığı dövrdə sənətə gəlib, musiqi ilə tanış olmuşuq. Gənc yaşımdan televiziyanın solisti, Azərbaycan Dövlət Filarmoniyası "Lalə" qızlar ansamblının solisti kimi görün necə sənətkarları görmüşəm. İndi də yadıma düşəndə bilirsiniz necə dil-dodağım əsir?! Məni keçmişə apardınız. 17 yaşlı qızın səhnədə gördüyü nəhəng sənətkarlardan sonra...

> "Bizim hər ruh və ovqata xitab edən nə qədər gözəl, şən nəğmələrimiz var. Onlar qala-qala ağzımı ağrıdıb o mənasız söz yığınlarını oxumaram. Heç qulaq da asmıram..."

*– Böyük sənətkarlarla bir səhnədə olmaq başqa bir əzəmət idi yəqin...*

– Əksəriyyəti necə mehriban, səmimi, sadə idi. İndikilər kimi ədabazlıq, bəzilərinə xas yekəxanalıq yox idi onlarda. Sən gəncsənsə, tanınmırsansa, arxa planda qalmalısan deyə bir kobud qayda yox idi. Yadıma düşdü, bir xatirə danışım. Günlərin bir günü filarmoniyada konsertqabağı məşq idi. Mən də filarmoniyanın iri pəncərəsindən bayıra baxıram. Birdən xoş avazla "Gedər bu gözəllik, sənə də qalmaz"ı eşidib cəld qanrıldım. Qarşımda böyük sənətkar Əlibaba Məmmədovu görəndə qeyri-ixtiyari diksindim və "Ay Allah, diri Əlibaba Məmmədov" deyib heyrətlə ona baxdım. Bu sözümə qəşş elədi, rəhmətlik. Sonra "Ay bala, mən sağam e, bura da filarmoniyadır, özünə gəl" dedi. Təbii ki, biz o vaxta qədər bu sənətkarları ya televiziya ekranından görmüşdük və ağzımdan "canlı" kəlməsi yerinə "diri" sözü çıxmışdı. O sözüm uzun müddət filarmoniyadakıların ağzından düşmədi.

*– Hansı sənətkara bənzəmək istəmisiniz, onun vurğunu olmusunuz?*

– Mənim üçün sənət günəşi sevimli müəllimim Şövkət Ələkbərova idi. O mənim üçün ölməyib, daim qəlbimdə, ruhumda, düşüncələrimdə yaşayır. O əbədiyaşarlıq haqqını böyük sənəti və şəxsiyyəti ilə qazanıb. Çox səmimi, mehriban, mərhəmətli idi. Bizə ana kimi qayğı göstərirdi. Təsəvvür edin, dərsə girəndə nə öyrəndiyimizdən əvvəl ac olub-olmadığımızı soruşurdu. Mütləq çantasında meyvə, konfet gətirib bizə paylayardı. Bizi tez-tez evinə çağırar və mütləq bişirdiyi yeməklərdən yedirərdi...

*– Bu gün meyarlar dəyişib. Yəqin siz də çox darıxırsınız.*

– Darıxmaq nədir, hönkür-hönkür ağlayıram o illər üçün. Çünki o zaman efirə çıxarkən geyim-keçimdən mimikalarımıza, əl-qol hərəkətlərimizədək hamısı müəyyən nizamda olmalı idi. Bunun nəyi pis idi? Adını indi senzura qoyub pisləyirlər. Amma o dövrü də görən adam kimi deyim ki, hər cür gözəllik, zəriflik, o zamanda daha yaxşı idi. Sevinirəm ki, mənim də populyarlığım o dövrə təsadüf etdi, lent yazılarım "qızıl fond"a düşdü. Dünyamı dəyişəndə o yazılar məni xatırladacaq.

*– O dövrdə hər kəsin həm də öz yeri vardı yəqin. Məsələn, konsertlər sıralaması, müəllimlər və onların şagirdləri...*

– Bəli, nəsillər arasında rəqabətdən çox xətir-hörmət vardı. Məsələn, "Dan ulduzu"nun bir konsert buraxılışı olurdusa, orada yalnız korifeylər – Şövkət xanım və sənət dostları oxuyardı. Üzərindən bir müddət keçər və başqa bir proqramla biz gənclər oxuyardıq. O zaman mənim səhnədə ən yaxşı tərəf-müqabilim, duet ortağım rəhmətlik Məhəbbət Kazımov idi. Bizim nəsildən olan müğənnilərin də ayrıca konserti olardı. Bunlar hamısı ustalıqla nizamlanırdı. Bilirsiniz, biz "olmaz"larla asanlıqla razılaşırdıq, anlayırdıq.

*– O dediyiniz "olmaz"ların yolunuzda səddə çevrildiyi məqamlar da olub yəqin. Sizin nəsildən bir çox müğənnilər o dövrü xatırlayarkən qadağaların "qəhrəmanlarını" da unutmurlar.*

– Çox görmüşəm, çox yolumu kəsiblər. Elə olub ki, qastrol siyahısından adımı çıxarıblar. Televiziya konsertlərində yazılarımı pozdurublar. Amma indiki kimi açıq deyildi belə məsələlər. Örtülü aparılırdı. Onu da deyim ki, müəllimimiz Şövkət Ələkbərova bizi çox qoruyurdu. Təəssüf ki, ona bata bilməyənlər acığını tələbələrindən çıxmağa çalışırdılar. Bizi kimlərsə incidəndə, adlarımızı siyahıdan çıxaranda Şövkət xanım əsl döyüşçü kimi atılırdı meydana. Yadımdadır, bir dəfə Aybəniz Haşımova bu barədə ona giley edəndə rəhmətlik Şövkət xanım necə əsəbiləşdisə, qalxıb filarmoniyaya getdi və məsələni həll elədi. Eh, hansını deyim? Həvəslə xarici ölkələrdən birinə səfərə hazırlaşırdım. Böyük sənətkarımız Rəşid Behbudovun rəhbərliyi ilə onun Mahnı Teatrının dəvəti solisti kimi dünyanın 30-dan artıq ölkəsində konsertlərdə olmuşdum. Belə konsertlərin birində məşhur ifaçılardan biri qulağım eşidə-eşidə "Firuzə kimdir ki, mən qala-qala qastrola gedir!" deyib qışqır-bağır saldı. Təsəvvür edirsiniz ki, Rəşid müəllim məcbur olub ən yuxarı təşkilata zəng etməklə bu məsələni həll elədi və mən o səfərdə oldum. Amma bəzən də gedə bilmirdim. Uzun əllər yolumu kəsirdi...

*– Amma sənətə gələn hər kəsin bir amalı, arzusu olur...*

– Mən 9 yaşımdan "Bənövşə" uşaq xorunda oxudum. O yaşda uşaq nə bilir şöhrət nədir. Biz indikilər kimi deyildik ki. Bilirsiniz, yanaşmamız, tərbiyəmiz ayrı idi. Mən dünya malında gözü olmayan adamam. Biz bu dünyadan heç nə aparmırıq. Bircə xoş xatirələrdən başqa. Xalqın sənətkarı olmaq başqa bir zirvədir və biz sənətə gələrkən ustadlarımızdan bu kimi məqamları da öyrəndik.

*– Firuzə xanım, təəssüf ki, artıq siz deyən o sənətkar sözü də elə bil urvatdan düşür. İndi daha başqa bənzətmələr edilir.*

– Bəli, təəssüf ki, düşüb urvatdan. Bu da məni xeyli qəhərləndirir. Kimsə elə düşünməsin ki, mən gəncləri, populyar ifaçıları həzm edə bilmirəm. Vicdanım haqqı, yox. Sadəcə, klassiklərə, böyük sənətkarlara, onların mirası olan mahnılara toxunub zay eləməsinlər. Böyük bəstəkarlarımızın ritmi, melodiyası, sözü, milizması yerində olan mahnılarına toxunmasınlar. İnciməsinlər, o mahnıların möhürü zamanında vurulub, nə qədər çalışsalar da, onu korlamaqdan başqa bir şey əldə etməyəcəklər.

*– Bu yaşda kim və nə üçün təəssüflənirsiniz?*

– Bilmirəm bu pisdir, yoxsa yaxşı, amma bu yaşımda da utancaqlığımı, kövrəkliyimi ata bilmirəm. Buna görə çox divardan-divara çırpılmışam. Amma yenə də özümə "çox sağ ol" demişəm. Şikayət eləməmişəm. Çünki bu da bir yazı idi...

*– Ömrünüzün az qala 60 ili səhnədə keçib. Bu illər sizə əsas nəyi öyrətdi?*

– Dözüm, səbir və minnətdarlıq. Çünki it-bata da düşə bilərdim. Şan-şöhrətə aldanıb kimlərinsə yolunda qaratikan olmadım, cəbhələrə bölünmədim, qapılar kandarını ağartmadım, ad-san üçün sənət dostlarımla üz-göz olmadım. Özümdə ən çox sevdiyim cəhət də məhz budur: mən başqalarının uğuruna sevinə bilirəm. Mənimlə eyni vaxtda, hətta çox-çox sonralar gələnlər də yüksək fəxri adları, mükafatları alıblar. Ürəkdən təbrik etmişəm, onların adına sevinmişəm. Sözsüz ki, taleyimlə barışaraq "yəqin belə lazımdır" da demişəm.

*– Həm də zaman-zaman anlayırsan ki, sənətdə istedad və peşəkarlıqdan savayı şans da öz sözünü deyir.*

– Özü də necə. Mütləqdir bu şans, alın yazısı. Neyləməli, buna da şükür. O şansı tutmalı və əlindən buraxmamalısan. Mənim ədəb-ərkanım həmişə buna mane olub. Heç vaxt məni qapılarda, kürsülərin kabinetlərində, qəbullarında görməzsiniz. Bu günədək etməmişəmsə, bundan sonra da çətin. Hələ 1982-ci ildə ovaxtkı mədəniyyət nazirimizin "Tezliklə "Əməkdar artist" adını alacaqsınız" sözünü eşitdim. Moskvada mədəniyyət ongünlüyündə bu sözləri eşidəndə sevindiyimdən az qalırdım uçam. Amma o "Əməkdar artist" adını 2006-cı ildə aldım. Müstəqil Azərbaycanın Prezidenti İlham Əliyevin sərəncamı ilə. Min şükür.

*– Yubiley ilində ovqatınız hansı notdadır?*

– Lirik. Özü də müəllimimin oxuduğu avazda: "Bir könül sındırmışam", "Yaz qatarı", "Məhəbbət". Yəni öz ruhuma uyğun...

*– Həmişə belə kövrək olmusunuz, yoxsa yaş ötdükcə...*

– Mənimki əzəldən belə gətirib: kövrək, boynu çiynində olan Firuzə. Həmişə Şövkət xanım mənə tez-tez "Boynunu bükmə, düz, məğrur dayan. Bu qədər utancaq olma" deyirdi. Neyləyim, dəyişmədi xasiyyətim. Nə yaxşı dəyişmədi də...

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi — 9 – 12 mart

### Azərbaycan

**9 mart 1893** (bəzi mənbələrdə 12 dekabr) – Görkəmli aktyor, rejissor, Xalq artisti Abbas Mirzə Mirzə Əbdülrəsul oğlu Şərifzadə (1893 – 16.11.1938) Şamaxıda doğulub. Azərbaycan milli teatr tarixində müstəsna xidmətlər göstərib, dram və opera tamaşalarına quruluş verib. "Bismillah" (1925), "Hacı Qara" (1929) filmlərinin rejissoru olub. 1938-ci ildə repressiya edilərək güllələnib.

**9 mart 1915** – Xalq rəssamı Kamil Əli Abbas oğlu Xanlarov (1915–1996) anadan olub. Füsunkar təbiət lövhələrini kətana köçürüb: "Zaqatala dağları", "Şuşa", "Araz sahilində", "Ordubadda qış" və s. Filmlərdə ("Kəndlilər", "Fətəli xan") geyim rəssamı işləyib.

**9 mart 1929** – Tanınmış diktor, Əməkdar artist Gültəkin Əjdər qızı Cabbarlı (1929 – 15.10.1996) anadan olub. Azərbaycanda peşəkar diktorluq məktəbinin yaranmasında xüsusi xidmətləri olub.

**9 mart 1952** – Əməkdar incəsənət xadimi, aktyor, rejissor Əhməd Haşım oğlu Qəmərli (Məlikov; 1880–1952) vəfat edib. Bakı Azad Tənqid-Təbliğ Teatrında çalışıb. "İsmət" (1934), "Almaz" (1936) və s. filmlərdə çəkilib. Kiçik pyeslər yazıb.

**10 mart 1878** – Böyük yazıçı, dramaturq, mütəfəkkir Mirzə Fətəli Axundzadə (30.6.1812 – 1878) Tiflisdə vəfat edib. 1850-ci illərdə yazdığı 6 komediya ilə Azərbaycan dramaturgiyasının, 1857-ci ildə qələmə aldığı "Aldanmış kəvakib" povesti ilə realist Azərbaycan nəsrinin təməlini qoyub.

**10 mart 1915** – İlk azərbaycanlı balerina, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, professor Qəmər Hacağa qızı Almaszadə (1915 – 7.4.2006) anadan olub. Professional səhnəni tərk etdikdən sonra Dövlət Opera və Balet Teatrının baş baletmeysteri olub (1953–1972), Bakı Xoreoqrafiya Məktəbinin direktoru işləyib.

**10 mart 1940** – Xalq artisti, xanəndə Canəli Xanəli oğlu Əkbərov (1940 – 22.10.2021) Lənkəran rayonunun Tükəvilə kəndində doğulub. Opera tamaşalarında baş rollarda (Məcnun, Kərəm, Aşıq Qərib, Şah İsmayıl və s.) çıxış edib. Mədəniyyət və İncəsənət Universitetinin professoru olub.

**10 mart 2004** – Xalq artisti, məşhur aktrisa Nəsibə Cahangir qızı Zeynalova (20.4.1916 – 2004) vəfat edib. Musiqili Komediya Teatrında çalışıb, filmlərdə ("Ögey ana", "Ulduz", "Qayınana" və s.) maraqlı obrazlar yaradıb.

**10 mart 2021** – Xalq rəssamı Mirnadir Mirəli oğlu Zeynalov (12.11.1942 – 2021) vəfat edib. Əsərləri xaricdə nümayiş olunub, Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır.

**11 mart 1925** – Xalq artisti, məşhur aktyor Bəşir Səfəroğlu (Bəşir Səfər oğlu Səfərov; 1925 – 24.3.1969) Bakıda anadan olub. Musiqili Komediya Teatrında tamaşaçı rəğbəti qazanan obrazlar yaradıb. "Əhməd haradadır?", "Ulduz" və s. filmlərdə çəkilib.

**10 mart 1942** – Tanınmış aktrisa Lütfiyyə Şamil qızı Səfərova (1942–2010) Bakıda doğulub. 1963-cü ildən Musiqili Komediya Teatrında çalışıb.

**10 mart 1943** – Əməkdar rəssam Adil Əliağa oğlu Rüstəmov (1943 – 22.3.2018) Bakıda anadan olub. Qrafika əsərləri, xüsusilə qəzəlxan Əliağa Vahidə həsr olunmuş işləri ilə tanınıb. Rəssamlıq Akademiyasında dərs deyib. Ömrünün son illərində Fransada yaşayıb.

**11 mart 2000** – Prezident Heydər Əliyev Xalq yazıçısı Süleyman Rəhimovun 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**11 mart 2022** – Xalq yazıçısı, dramaturq, Dövlət mükafatları laureatı Rüstəm Məmməd İbrahim oğlu İbrahimbəyov (5.2.1939 – 2022) vəfat edib. 30-dan çox filmin ("Ad günü", "İstintaq", "Özgə ömür", "Ölsəm... bağışla" və s.) ssenari müəllifidir. Pyesləri teatrlarda tamaşaya qoyulub.

**12 mart 1904** – Xalq yazıçısı Əbülhəsən (Əbülhəsən Əlibaba oğlu Ələkbərzadə; 1904–1986) İsmayıllı rayonunun Basqal kəndində doğulub. "Yoxuşlar", "Müharibə", "Dostluq qalası", Dünya qopur" və s. romanların müəllifidir.

**12 mart 1906** – Xalq şairi, dramaturq, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rüstəm (Süleyman Əliabbas oğlu Rüstəmzadə; 1906 – 10.6.1989) Bakıda anadan olub. Kitabları: "Gün o gün olsun ki...", "İki sahil", "Durna" (komediyalar), "Təbrizim", "Azərbaycana gəlsin" və s. Azərbaycan SSR Ali Sovetinin sədri olub.

**12 mart 1933** – Xalq şairi Cabir Mirzəbəy oğlu Novruz (Novruzov; 1933 – 12.12.2002) Xızı rayonunun Upa kəndində doğulub. Şeirlərinə populyar mahnılar ("Cavanlığım", "Ey həyat, sən nə qəribəsən?", "Tələbəlik illəri" və s.) bəstələnib. Milli Məclisin deputatı olub.

**12 mart 1942** – Fəlsəfə elmləri doktoru, AMEA-nın akademiki Əfrand Firudin oğlu Daşdəmirov (1942 – 7.4.2015) Bakıda anadan olub.

**12 mart 2020** – Əməkdar artist Adil Ağakərim oğlu Zeynalov (1960 – 12.3.2020) vəfat edib. Lənkəran Dövlət Dram Teatrında aktyor və rejissor işləyib.

### Dünya

**9 mart 1814** – Ukrayna şairi, yazıçı, rəssam Taras Qriqoryeviç Şevçenko (1814 – 10.3.1861) anadan olub.

**9 mart 1934** – Moldova aktyoru, SSRİ Xalq artisti Mixay Volontir (1934 – 15.9.2015) anadan olub. Azərbaycanda "Tütək səsi" filmində çəkilib.

**10 mart 1772** – Alman filosofu, filoloq, dilçi və yazıçı Fridrix Şlegel (Friedrich Schlegel; 1772–1829) anadan olub.

**11 mart 1544** – İtalyan şairi Torkvato Tasso (Torquato Tasso; 1544–1595) anadan olub.

**11 mart 1818** – Fransızəsilli rus baletmeysteri, tanınmış pedaqoq Marius İvanoviç Petipa (1818–1910) anadan olub.

**12 mart 1728** – Alman rəssamı, klassisizmin tanınmış nümayəndəsi Anton Rafael Mengs (Anton Raphael Mengs; 1728–1779) anadan olub.

**12 mart 1937** – Gürcü opera müğənnisi (tenor), SSRİ Xalq artisti Zurab Lavrentyeviç Sotkilava (1937–2017) anadan olub.

**Hazırladı: V.Orxan**

## Cəlil Məmmədquluzadənin əsərləri fransız dilində




Parisdəki "Maisonneuve & Larose", "Hemispheres" nəşriyyat evlərinin ofisində Fransanın Elmi-Tədqiqatlar Milli Mərkəzinin (CNRS) tədqiqatçısı, XX əsrdə Yaxın Şərq və Mərkəzi Asiyanın İslam tarixçisi, rus, özbək, tacik, Azərbaycan və İran ədəbiyyatının tərcüməçisi Stefan Düdvanyonun (Stephane A.Dudoignon) Cəlil Məmmədquluzadənin novellaları əsasında hazırladığı "Dəllək və digər novellalar" kitabının təqdimatı olub.

Kitabda görkəmli ədibin "Dəllək", "Poçt qutusu", "Usta Zeynal", "Qurbanəli bəy", "Kişmiş oyunu", "Pirverdinin xoruzu", "Quzu", "Xanın təsbehi", "Molla Fəzləli" kimi novellaları yer alıb.

Təqdimatda Stefan Düdvanyon ədibin həyat və yaradıcılığı haqqında məlumat verib. Onun Tiflisdə nəşr edilən "Şərqi-Rus" qəzeti redaksiyasında fəaliyyətindən, yazıçı və jurnalist kimi formalaşmasında qəzetin və onun redaktoru Məhəmməd ağa Şahtaxtinskinin rolundan söz açılıb. Diqqətə çatdırılıb ki, Cəlil Məmmədquluzadə ilk nömrəsi 1906-cı il aprelin 7-də çıxan "Molla Nəsrəddin" jurnalının nəşri ilə Azərbaycanda, eləcə də türk-müsəlman dünyasında satirik jurnalistikanın əsasını qoyub.

# Finlandiyada "Azərbaycan – multikulturalizm diyarı" adlı fotosərgi



Finlandiyanın Espoo şəhərinin Lippulaiva kitabxanasında fotoqraf Etibar Cəfərovun "Azərbaycan – multikulturalizm diyarı" kitab-albomunun təqdimatı və eyniadlı fotosərginin açılışı keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) dəstəyi ilə nəşr olunmuş kitabda ölkəmizin multikultural dəyərləri barədə məlumatlar əksini tapıb.

Komitədən bildirilib ki, Helsinki Azərbaycan Evinin təşkilatçılığı ilə keçirilən tədbirdə yerli ictimaiyyətin, eləcə də ölkəmizə dost münasibət bəsləyən icmaların üzvləri, Finlandiyanın müxtəlif şəhərlərində yaşayan diaspor nümayəndələri iştirak ediblər.

Espoo şəhər kitabxanasının sabiq direktoru, kitabxananın layihələr departamentinin rəhbəri Yana Turni Azərbaycanın multikultural və tolerant dəyərlərinin zənginliyindən danışıb.

Helsinki Azərbaycan Evinin rəhbəri Ülviyyə Cabbarova xalqımızın multikultural dəyərlərinin Azərbaycan diasporuna təsirindən bəhs edib, soydaşlarımızın yerli cəmiyyətə inteqrasiyası barədə fikirlərini bölüşüb.

E.Cəfərov kitabın ərsəyə gəlməsindən, nümayiş olunan fotoların tarixçəsi və Azərbaycan multikulturalizminin, milli adət-ənənələrinin rəngarəngliyindən söz açıb.

DİDK-nın şöbə müdiri Xıdır Kazımov Azərbaycanda müxtəlif mədəniyyətlərin inkişafına dövlət dəstəyindən danışıb.

Sonda kitab-albom ziyarətçilərə və kitabxanaya hədiyyə edilib. Ziyarətçilər fotosərgi ilə tanış olublar.

Qeyd edək ki, Helsinkinin "Oodi" kitabxanası və Finlandiyada fəaliyyət göstərən Azərbaycan Evi də "Azərbaycan – multikulturalizm diyarı" adlı fotosərgiyə ev sahibliyi edib.

# "Musiqi sərhəd tanımır"

## Bəstəkarlarımızın əsərləri Milanda səslənib

İtaliyanın Milan şəhəri Azərbaycan bəstəkarlarının klassik əsərlərinin səsləndirildiyi "Musiqi sərhəd tanımır" adlı konsert proqramına ev sahibliyi edib. Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Konsert proqramı Dövlət Komitəsinin dəstəyi, Almaniya Azərbaycanlıları Alyansının təşkilatçılığı, eləcə də Avropada yaşayan və Azərbaycandan olan musiqiçilərin iştirakı ilə keçirilib. "Villa Clerici" incəsənət muzeyinin konsert salonunda Tofiq Quliyev, Qara Qarayev, Fikrət Əmirov, Vaqif Mustafazadə, Vasif Adıgözəlov və digər görkəmli bəstəkarlarımızın əsərləri ifa olunub.

İtalyanın mədəniyyət xadimi Ancelo Montovani qonaqlara Azərbaycan mədəniyyəti, musiqisi barədə məlumat verib. Bildirilib ki, Azərbaycan dünya səhnəsində öz musiqisi ilə seçilir.

Almaniyanın Düsseldorf şəhərində yaşayan pianoçu, Almaniya Azərbaycanlıları Alyansı idarə heyətinin üzvü Səbinə Məmmədovanın, Milanda yaşayan opera müğənnisi Çinarə Şirin və tarzən, Əməkdar artist Sahib Paşazadənin ifası qonaqlar tərəfindən alqışlarla qarşılanıb.



# Vüsalə Babayeva dəvət edir

Martın 9-da Londondakı Müqəddəs Ceyms kilsəsində soydaşımız Vüsalə Babayevanın solo konserti olacaq.



Bakı Musiqi Akademiyasının məzunu, hazırda dünyanın ən nüfuzlu musiqi təhsili olan London Kral Musiqi Kollecinin magistratura pilləsində təhsil alan Vüsalə xanım klassik fortepiano musiqisindən zövq almaq istəyənlərin qarşısında maraqlı proqramla çıxış edəcək.

Proqrama Frederik Şopenin "Mazurka" və "Böyük parlaq polonez mi-bimol" əsərləri, Sergey Prokofyevin 7 nömrəli sonatası və Sevda Məmmədlinin "Laçın balladası" daxildir.

Vüsalə Babayeva London Kral Musiqi Kollecində təhsil alan ilk azərbaycanlıdır. O, hələ məktəbli ikən beynəlxalq müsabiqələrdə ölkəmizi uğurla təmsil edib. Londonda təhsil almaqla bərabər, konsert fəaliyyətinə də davam edir.

Londondakı konsert Müqəddəs Ceyms kilsəsinin yutub kanalı ilə canlı yayımlanacaq.

# "Qazaxların Motsartı" şotlandlar üçün opera yazıb

Qazaxıstanın gənc bəstəkar-pianoçusu Raxat-Bi Abdısaginin "Brüs" operası Böyük Britaniyada tamaşaya qoyulub.

Qazaxıstan mediasının məlumatına görə, əsər Şotlandiyanın hökmdarlarından kral Brüsün 750 illiyinə həsr olunub. Operanın premyerası Danfermlin abbatlığında baş tutub. Kral Robert Brüs burada dəfn edilib. Operanın librettosu bu hökmdara ithaf olunmuş poemanın motivləri əsasında yazılıb.

25 yaşlı bəstəkar əsər barədə deyib: "Bu poemanı 1375-ci ildə Con Barbur adlı müəllif yazıb. Opera keçmiş və gələcək arasında özünəməxsus körpüdür. Burada həm də multikultural aspekt də var. Operanın aparıcı ideyası azadlıqdır".

Bəstəkar əsərin yazılmasından ötrü təkcə istedad və bacarıq sərf etməyib. Tarixi konteksti qurmaq, həmçinin Orta əsrlər şotlandlarının tələffüzünü bərpa etmək üçün alim və linqvistlərlə birlikdə çalışıb. Quruluşda Şotlandiya Kral Konservatoriyasının vokalçıları və orkestri iştirak edib. Orqan partiyasını Raxat-Bi Abdısagin özü ifa edib. Opera kilsə operası janrında bəstələnib, müəllif qədim musiqi ənənələrini və müasir bəstəkar texnikalarını bacarıqla birləşdirməyə nail olub.



"Brüs" operası qazaxıstanlı gəncin Şotlandiya Kral Konservatoriyası və Sent-Endrüs Universitetindəki doktorluq araşdırmasının çərçivəsində yazılıb. Əsər Qlazqoda, Edinburq və Sent-Endrüsdə ifa edilib.

"Qazaxların Motsartı" adlandırılan Raxat-Bi Abdısagi indiyədək müxtəlif həcmli 150 əsər bəstələyib ki, onların çoxu Avropa, Asiya və Amerikanın konsert salonlarında səslənir.

**Gülcahan**

# Tarixdə bu gün

## Olaylar, faktlar (10 – 12 mart)



**Xronoqraf**

### 289 il əvvəl...

**10 mart 1735-ci ildə** Səfəvi dövləti və Rusiya arasında Gəncə müqaviləsi bağlanıb. Səfəvi ordusunun komandanı Nadir xan və knyaz Qolitsın tərəfindən imzalanan müqaviləyə görə, rus qoşunları Xəzəryanı Azərbaycan torpaqlarını (Dərbənd, Bakı, Salyan) tərk ediblər. Bunun müqabilində Səfəvi dövləti rus tacirlərinə güzəştli ticarət şəraiti yaratmaq, Osmanlı ilə müharibədə Rusiyaya yardım etmək barədə öhdəlik götürüb.

### 230 il əvvəl...



**12 mart 1794-cü ildə** Polşada Tadeuş Kostyuşkonun başçılığı altında Rusiya və Prussiya (alman) müstəmləkəçiliyinə qarşı üsyan başlayıb. Aleksandr Suvorovun komandanlıq etdiyi rus qoşunları üsyanı yatırıb. Bundan sonra Polşa Rusiya və Prussiya arasında 3-cü dəfə (tamamilə) bölüşdürülüb.

### 151 il əvvəl...

**10 mart 1873-cü ildə** Bakıda maarifçi Həsən bəy Zərdabinin təşəbbüsü, dramaturq Nəcəf bəy Vəzirov, aktyor Əsgər ağa Adıgözəlov (Gorani) və Realnı məktəbin şagirdlərinin iştirakı ilə M.F.Axundzadənin "Lənkəran xanının vəziri" komediyası səhnələşdirilib. Bununla da Azərbaycan peşəkar milli teatrının əsası qoyulub və bu tarix Milli Teatr Günü kimi qeyd olunur.

### 104 il əvvəl...




**10 mart 1920-ci ildə** Azərbaycan Qızıl Aypara Cəmiyyəti təsis edilib. Prezident İlham Əliyevin sərəncamı (7 aprel 2008-ci il) ilə 10 mart Azərbaycanda "Qızıl Aypara Günü" kimi qeyd olunur.

### 102 il əvvəl...

**12 mart 1922-ci ildə** bolşevik Rusiyasının təşviqi ilə üç Cənubi Qafqaz respublikasının (Azərbaycan, Gürcüstan, Ermənistan) ittifaqı – Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqı yaradılıb.

### 76 il əvvəl...

**10 mart 1948-ci ildə** SSRİ Nazirlər Soveti Ermənistandakı azərbaycanlı əhalinin Azərbaycana deportasiyası haqqında ikinci qərar qəbul edib. İlk qərar 1947-ci il dekabrın 23-də verilmişdi. Qərara görə, azərbaycanlı kolxozçuların boşaltdığı ərazilərə xaricdən ermənilər köçürülməli idi. Azərbaycanın rəhbəri M.Bağırovun Stalinə müraciətindən sonra qərarın sərt şərtləri qismən yumşaldılmışdı.

### 32 il əvvəl...

**12 mart 1992-ci ildə** Qazax rayonunun Aşağı Əskipara, Ağdərə rayonunun Sırxavənd, Qaraşlar, Beşirlər, Baş Güneypəyə, Orta Güneypəyə, Xatınbəyli, Manikli kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. 2020-ci ilin 44 günlük müharibəsindən sonra Rusiya sülhməramlılarının müvəqqəti nəzarətinə keçən Ağdərə rayonu 2023-cü ilin 19-20 sentyabr antiterror əməliyyatı nəticəsində tamamilə Azərbaycanın suverenliyi altına qayıdıb.

**Hazırladı: V.Orxan**

# İordaniyada "Qarabağ xanlığı: tarixi və mədəni kimlik" albom-kitabının təqdimatı

Əmman şəhərində yerləşən İordaniya Muzeyində Azərbaycanın İordaniya Haşimilər Krallığındakı Səfirliyi, Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyasının (ABİA) təşkilatçılığı ilə "Qarabağ xanlığı: tarixi və mədəni kimlik" adlı albom-kitabın təqdimatı olub.




Xatırladaq ki, Azərbaycan Xarici İşlər Nazirliyinin dəstəyi ilə çap edilmiş kitab Gürcüstan Milli Muzeyinin arxivlərindəki Qarabağ xanlığının tarixinə dair nadir sənədlər, eksponatlar haqqındadır.

Mərasimdə çıxış edən İordaniya Muzeyinin baş direktoru İhab Amarin və Azərbaycanın bu ölkədəki səfiri Eldar Səlimov indiyə qədər ingilis, fransız və ispan dillərində işıq üzü görmüş nəşrin Azərbaycanın Qarabağ bölgəsində tarixən formalaşmış mədəni irsi haqqında geniş məlumatın dünyaya çatdırılmasında əhəmiyyətini vurğulayıblar.

Eldar Səlimov kitaba daxil edilən materialların Gürcüstan Milli Muzeyinin arxivlərində yüz ildən artıq qapalı saxlanıldığını, yalnız bir neçə il əvvəl Heydər Əliyev Fondunun təşəbbüsü ilə aşkarlandığını diqqətə çatdırıb.

Nəşrin elmi redaktoru, ABİA-nın idarə heyətinin sədri Elçin Əsgərov, İordaniya Universitetinin professoru, tarixçi Məhəmməd Vahib, yazıçı və tarixçi Məhəmməd İsa əl-Udvan Azərbaycan tarixi irsinin bir parçası olan alban mədəniyyətinə aid mədəni artefaktların süni şəkildə erməniləşdirilməsindən bəhs edib, Rusiya imperiyası dövründə toplanmış və bu gün Gürcüstanda qorunan bu etnoqrafik materialların Qarabağın Azərbaycan milli mədəniyyətinin mühüm mərkəzlərindən biri olduğunu göstərdiyini vurğulayıblar.

Tədbir çərçivəsində "Qarabağın inciləri" adlı fotosərgi açılıb. Sərgidə Gürcüstan Milli Muzeyinin kolleksiyalarından Qarabağ xanlığına (1747–1822) aid artefaktların şəkilləri nümayiş etdirilib.

# Arktikaya da yay gələ bilər

## Bir neçə günlüyə də olsa...

ABŞ-nin Kolorado Universitetinin alimləri yaxın gələcəkdə Arktikada (şimal qütbü) yay mövsümünün ola biləcəyini, dənizin ilin müəyyən günlərində buzdan azad olacağını iddia ediblər. Bu halda qütb regionunun rəngi ağdan maviyə dəyişəcək.



Tədqiqat "Nature Reviews Earth & Environment" (NREE) elmi jurnalında dərc edilib.

Ekspertlərin nəticələri bunu deməyə əsas verir ki, Arktikada buzsuz ilk gün əvvəlki proqnozlardan 10 ildən də tez, yaxın iki ildə yarana bilər. Buzsuz mövsüm tamamilə buzun yoxluğu anlamını vermir. Bu halda Arktika regionunda buzun azı 1 milyon kvadrat kilometr ərazini tutması başa düşülür.

Yüzilliyin ortalarında Arktika ehtimal ki, bir ayı üzən buz olmadan keçirəcək. Yəqin ki, bu ay sentyabr olacaq. Yüzilliyin sonunda buzsuz mövsüm istixana tullantılarının gələcək vəziyyətindən asılı olaraq ildə bir neçə ay uzana bilər. Əgər istiləşmə prosesi sürətli və orta templərlə gedərsə, o halda Arktika dənizləri hətta qışda belə dəha donmayacaq.

Dəniz buzunun azalması ondan asılı olan Arktika heyvanlarına, o cümlədən suiti və ağ ayılara əhəmiyyətli təsir göstərir. Bundan başqa, okean isindikcə, tədqiqatçılar Şimal Buzlu okeanında yabancı balıqların məskunlaşa bilməsindən narahatdırlar. Bu invaziv növlərin yerli ekosistemə təsiri naməlum olaraq qalmaqdadır.

# ABŞ-də "TikTok" qadağan olunur?

## Konqresə qanun layihəsi təqdim edilib

Amerikalı konqresmenlər "TikTok" ilə Çinin "ByteDance" texnologiya kompaniyası arasında əlaqələrin davam edəcəyi təqdirdə sosial şəbəkəyə qadağa tətbiq olunması imkanını nəzərdə tutan qanun layihəsi təqdim ediblər.

Qanun layihəsi "TikTok" ilə Çin tərəfindən idarə olunan bütün qurumlar arasında istənilən əlaqəni kəsməyi hədəfləyir. Konqresmenlər sosial şəbəkəni satmaq üçün "ByteDance" kompaniyasına altı ay vaxt veriblər. Əks təqdirdə onun ölkədəki fəaliyyətinə, o cümlədən müvafiq tətbiqin şəbəkə platformalarında yerləşdirilməsinə qadağa qoyulacaq.

Qeyd edək ki, qısa videoları yükləməyə imkan verən "TikTok" sosial şəbəkəsi 2017-ci ildə, beynəlxalq versiyası isə 2018-ci ildə istifadəyə verilib. Şəbəkənin sahibi "ByteDance" kompaniyasıdır.

ABŞ-də ehtiyat edirlər ki, Çinin kəşfiyyat xidmətləri "TikTok" vasitəsilə məxfi məlumatları əldə edə bilər.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 560
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641